# UNİKAL

№43 (2225) 22 noyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az





# Azərbaycanla Ermənistan arasında məhkəmə çəkişməsi: Vurulan zərərə görə cavab verəcəklər



Səh.9

## "Hər kəsi ilk Su Bəyannaməsinə qoşulmağa çağırıram" - COP29-un Prezidenti

*Su iqlim problemlərinin aradan qaldırılmasında həlledici rol oynayır. Buna baxmayaraq uzun illər su problemi qlobal iqlim müzakirələrindən kənarda qalmışdı.*

*"Unikal" xəbər verir ki, bu fikirləri "İqlim, təbiət və insanlar üçün su həyat xəttinin təbliği" mövzusunda yüksəksəviyyəli tədbirin açılış mərasimində ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev deyib.*

*O qeyd edib ki, susuzluq problemi COP29 müzakirələrinin prioritet məsələlərindən biridir: "İqlim dəyişiklikləri ilə bağlı məsələlərin həllində susuzluq probleminə bütün aspektlərdən nəzər yetirməliyik. Çünki su həyatdır. Məhz bu səbəbdən COP29 Sədrliyi su məsələsini prioritetə çevirib. Düşünürəm ki, dialoqları sürətləndirmək tərəfdaşlığın artırılmasına təkan verəcək. Biz iqlim fəaliyyəti çərçivəsində su tərəfdaşları tapmalıyıq. Fəaliyyətlərə təkan üçün Bakı Dialoqu mühümdür. Burada davamlılıq təmin olunmalıdır. Hər kəsi ilk Su Bəyannaməsinə qoşulmağa çağırıram".*

Səh.3

## "Prezidentin minimum pensiya və əməkhaqqının artırılması ilə bağlı tapşırıqları var"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin əhəmiyyətindən, ehtiyac meyarının ləğv edilməsindən, minimum pensiyanın nə qədər artırıla biləcəyindən və büdcədə 70 dollardan götürülən neft qiymətinin aşağı olacağı təqdirdə hansı vasitələrdən...*

Səh.4

## Leyla Əliyeva COP29-da nadir canlıların mühafizəsinə həsr olunan panel müzakirələrində




*Noyabrın 21-də IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) əməkdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində...*

Səh.3

## Oqtay Şirəliyevin mükafatlandırdığı şöbə müdiri barədə yeni iddialar



*Mətbuatdan məlum olduğu kimi, bir müddət əvvəl ABŞ-də yaşayan jurnalist Qənirə Ataşova öz instaqram hesabında 50-yə yaxın plastik cərrahın adını paylaşaraq onları, həmçinin Səhiyyə Nazirliyini saxtakarlıqda ittiham edib. O, həmin həkimlərin nazirliyə rüşvət verərək ixtisaslarını dəyişdiklərini iddia edib.*

Səh.6

41_27 IYUI-QARA.qxd 11/21/2024 10:05 PM Page 2



# "Mən "98 benzinəm", heç kimdən qorxmuram" - Mətanət Əsədova



***"Bir sənət adamı var idi. 15 il efirlərə çıxıb ağzına gələni, biləni-bilməyəni, söyüşə qədər söydü. Ona dillənmədim, Allahın məhkəməsinə buraxdım. Allah da onu çürüdüb öldürdü".***

"Unikal" olay-a istinadən xəbər verir ki, bunu Mətanət Əsədova "Bir gün" verilişində deyib.

Müğənni ad çəkməsə də, bir zamanlar düşmən olduğu mərhum Əməkdar artist Zöhrə Abdullayeva ilə qalmaqalından danışıb: "Bir müğənni var idi. Canıma düşmən kəsilmişdi. Onu illərlə dindirmədim. Əməkdar artist Nüşabə Ələsgərli dedi ki, o müğənninin vəziyyəti yaxşı deyil, onu dindir. Xahişinə əməl etdim və dindirdim. Mən böyük-kiçik yeri bilən insanam. Özüm 98 benzinəm, heç kimdən qorxmuram".

Xatırladaq ki, Zöhrə Abdullayeva və Mətanət Əsədova arasındakı qalmaqal 2012-ci ildə yaşanıb. M.Əsədova həmkarının ünvanına demişdi: "Bir adam ki 63 yaşında Əməkdar artist adını alıb, o, mənim tayım deyil. Onun başı çatmır. O, mənimlə barışmaq üçün cəhdlər edir" sözlərini demişdi.

# "Hamı mənə Röya Ayxanın videosunu yollayır" - Lətifə Söyüöz

***"Telefonu aça bilmirəm. Nə qədər video göndərirlər. 2018-2019-cu illərdən vloqlar çəkməyə başladım. Azərbaycanda sənətçilər arasında bunu ilk mən etdim. Sonra bir marka rəhbəri oldum. Sənətçi və marka rəhbəriyəm".***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Lətifə Söyüöz sosial şəbəkədəki paylaşımında deyib. Sənətçi Xalq artisti Röya Ayxanın baxımla bağlı videosunu ona yollayanlara səslənib:

"Hamı mənə Röya Ayxanın videosunu yollayır: səhər qəhvəsini içdi, üzünə baxım etdi. Çox gözəl. Bunu neqativ məqsədlə yollamayın. Bunu müsbət qarşılayıram, sevinərək baxıram. Biz "ByLati" işinə başlayanda və səhər baxımının nə qədər önəmli olduğunu deyəndə hər kəsə məsləhət verdik. 2019-cu ildən belə videolar çəkirəm. Hər kəsi dəriyə qulluq etməyə çağırdıq. Sevinirəm ki, Röya Ayxan da belə video çəkib. Hamıdan səhər baxımı, üzə qulluqla bağlı videolar gözləyirəm. Dünəndən mesaj bölümüm dağılır. Çox gözəl, sevinirəm".



# Ayseldən plastik əməliyyat iddialarına cavab

***Müğənni Aysel Əlizadə plastik əməliyyat etdirməsi iddiasına cavab verib.***

Axşam.az xəbər verir ki, sənətçi instaqramda izləyicilərinin ünvanladığı sualları cavablandırıb. O, süd vəzi əməliyyatı etdirməsi ilə bağlı suala belə reaksiya verib: "Qətiyyən olmayıb. Olsa, səmimi cavablandıraram. Anormal baxmıram. Bu sual çox verilir. Üzümə isə vitaminlər vurdururam".

Şəxsi həyatı ilə bağlı "Oğlanın var" sualına Aysel "Subayam. Qəlbimi yandıranı silirəm, uzaqlaşıram, aid olduğum torpaqda çiçək açıram. Hər kəs sevgiyə layiq deyil. Layiq olmayanlara həyatımda önəm vermədiyim üçün qəlbimi yandıra bilmir. Oxşayan əllərin dəyərini bilək" cavabını verib.

# Elza Seyidcahanın yazdığı şeiri dərsliyə saldılar



***Əməkdar artist Elza Seyidcahan açıqlama verib.***

Müğənni qonaq olduğu "Həmin Zaur" verilişində yazdığı şeirlərin dərsliklərə düşdüyünü dilə gətirib: "Yazdığım şeirlərdən biri artıq dərsliyə düşüb. Bu yaxınlarda mənə zəng vurub dedilər ki, imtahana getmişdik. Orada bilet çəkəndə sizin haqqınızda yazılmışdı. Amma nə yazıldığı tam yadımda qalmayıb. İmtahanda sual olaraq qoyulub. Yəni artıq dərsliyə düşüb. Şeir haqqında sual olub. Həmin tələbə imtahandan kəsilməyib çünki düzgün cavabı tapıb. İstərdim ki, "Əşyalar" adlı şeirim dərsliyə düşsün".

# Rəmişin arvadı işdən çıxarılıb?

***Aparıcı Zaur Kamal müğənni Niyam Salaminin mərhum Xalq artisti Rafiq Hüseynovun (Rəmiş) həyat yoldaşı Gülünü sahibi olduğu restoranda işdən çıxartdığını deyib.***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu haqda verilişində danışan Zaur "2 il yanında işləyib, indi çıxardıb. Deyir ki, mənə dəstək oldu, işə götürdü. İndi şikayət edir ki, niyə məni işdən çıxartdı" sözlərini əlavə edib.

Niyam isə "Restoran hələ açılmayıb, necə işdən çıxartdım? Yalan danışır. Elə bir sənətkarın xanımını işə dəvət edəndə adını nə qoyum? Gülü yanımda nə işləyir? Aşpaz köməkçisi? Yox. O, işləmir, adı Niyamın yanında olmaqdır. Yanımda sağ əlim olacaq" deyə, cavab verib.

Qeyd edək ki, Rəmiş dünyasını dəyişəndən sonra xanımı restoranda çalışmağa başlayıb.

41_27 IYUl-QARA.qxd 11/21/2024 10:07 PM Page 3





## Komitə sədri pensiyalarda nə qədər artım olacağını açıqladı

***Dövlət Sosial Müdafiə Fondunun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,52%-ni və ya 7 milyard 408 milyon manatını əhaliyə ödənişlər təşkil edəcək.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisdə iki komitənin birgə iclasında parlamentin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Musa Quliyev deyib.

Komitə sədri bildirib ki, əhaliyə ödənişlər üzrə xərclərin 7 milyard 210 milyon manatı əmək pensiyalarının, 198,4 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin payına düşür: ”Əhaliyə ödənişlərin 2025-ci il üçün nəzərdə tutulmuş proqnozu 2024-cü ilin təsdiqlənmiş proqnozundan 702,4 milyon manat, yaxud 10,5% çoxdur. Əmək pensiyalarının orta aylıq məbləğinin 2024-cü ildə 494 manat təşkil edəcəyi gözlənilir, 2025-cü ildə isə 535 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 527 manatdan 44 manat artaraq 571 manata yüksəlməsi proqnozlaşdırılır. Əvvəlki illərdə olduğu kimi cari və növbəti illərdə də əvəzetmə əmsalı, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əməkhaqqı məbləğinə nisbəti müvafiq olaraq 48,8% və 49,5% olmaqla Beynəlxalq Əmək Təşkilatının sosial təminatın minimum normaları haqqında müvafiq konvensiyasına cavab verəcək.

2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 198,41 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 9,3%, yaxud 16,83 milyon manat çoxdur. Sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdiriləcək xərclər 25 milyon manat, yaxud cari ildəkindən 2% çoxdur. Fikrimizcə, bu məbləğ postmühariبə dövrünün reallıqlarına uyğun deyildir və müraciət edən şəxslərin yalnız cüzi bir hissəsinin ehtiyacını ödəyə biləcək. Bildirmək istəyirəm ki, 2023-cü ilin avqust ayından etibarən ilin sonunadək müvafiq qanunvericiliyin tələbi olaraq, Fondun formalaşmış sərbəst vəsaitindən 1050.0 mln. manat, 2024-cü ilin yanvar-oktyabr ayları ərzində 425,0 mln. manat investisiya fəaliyyətinə yönəldilmiş, cari ilin sonunadək daha 25,0 mln. manat məbləğində vəsaitin əlavə olaraq yönəldilməsi gözlənilir”.

***Anar Kəlbiyev***

# Oliqarxların xaricə qaçırdıqları yüz milyonlarla manatın şok pərdəarxası

## Qandallanan sahibkarların arxasında hansı vəzifəlilər var? - Yeni məmur həbsləri gözlənilir

***Son həftələrin geniş ictimai rezonans doğuran hadisələrindən biri axır illərdə müxtəlif şəxslər tərəfindən Azərbaycandan on milyonlarla dollar çıxarılıb, amma geri qaytarılmaması, eləcə də ölkədən ixrac olunan məhsullardan əldə olunan vəsaitlərin xaricdə qalması ilə bağlı prokurorluq tərəfindən cinayət işi açılması, xeyli sayda iş adamının həbs edilməsidir.***

Bu xəbər Azərbaycan ictimaiyyəti üçün yeni sayılır. Media adətən məmurların və onlara bağlı monopolist şirkətlərin Azərbaycandan irihəcmli vəsaitləri çıxararaq müxtəlif ölkələrin iqtisadiyyatına yatırdığı haqda məlumatlar yayır. Həmin vəsaitlər offşor hesablar üzərindən Avropa və ərəb ölkələrində daşınmaz əmlaka, biznesə, şirkətlərin səhmlərinə yatırılır. Amma ictimailəşən məlumatlar çox vaxt aidiyyatı dövlət qurumlarının “diqqətini çəkmir”.



Qanunvericiliyə görə, biznes subyektlərinin idxal-ixrac əməliyyatları çərçivəsində ölkədən çıxardığı valyuta müəyyən müddətdən sonra məhsul və ya pul şəklində geri qayıtmalıdır. Xəbərlərdən məlum olur ki, yüz milyonlarla vəsait çıxarılıb, qoyulan vaxt limiti də bitib, amma pullar vətənə dönməyib.

Mövzu ilə bağlı Baş Prokurorluğun məlumatında qeyd olunur ki, hazırda Dövlət Gömrük Komitəsindən daxil olmuş digər bu kateqoriya materiallar üzrə, yəni mal və məhsul ixrac etməklə əldə edilən pul vəsaitini Azərbaycana qaytarmamış şəxslər barəsində prokurorluq orqanlarında cinayət işləri başlanaraq ibtidai istintaq aparılır və zəruri tədbirlər icra olunur. Bu isə yeni həbslərin anonsu kimi qiymətləndirilə bilər.

Məsələyə münasibət bildirən iqtisadçı Rövşən Ağayev “Azpolitika.info”ya şərhində bildirib ki, qanunvericiliyə əsasən əgər mal ödənişi sonradan edilmək şərtilə xaricə satılırsa, maksimum 720 gün ərzində pul ölkəyə qayıtmalıdır. Onun sözlərinə görə, qayıtmadığı halda müvafiq maddələrə uyğun olaraq cinayət əməli sayılır. “Bu, həm də birbaşa ölkədən qanunsuz pul çıxarmaq sayılır”, - o əlavə edib.

Bank sektoru üzrə hüquqşünas Əkrəm Həsənov isə adı çəkilən sayta deyib ki, Cinayət Məcəlləsinin 208-ci maddəsində qaytarılmamış xarici valyuta vəsaiti yuxarı olduqda cinayət məsuliyyəti müəyyənləşdirilib. Ekspert qeyd edir ki, əgər sahibkarın xaricdən aldığı məhsul 2 il ərzində ölkəyə gəlmirsə və həmin malın dəyəri 20 min manatdan çoxdursa, bu zaman cinayət işi açılır. Ekspert onu da vurğulayıb ki, sözügedən maddənin mahiyyəti Azərbaycandan qanunsuz yollarla xaricə valyuta axınının qarşısını almaqdır: “Əslində bu cür işlərlə adətən adi adamlar məşğul olmurlar. Bunu iri məmurlar edirlər. Onlar korrupsiya, rüşvət yolu ilə qazandıqları vəsaitləri guya nəsə almaq adı ilə xaricə çıxarırlar. Dediyim kimi, adını da qoyurlar ki, guya xaricdən nəsə alırlar. Amma əsas məqsəd əldə etdikləri valyutanı Azərbaycanda saxlamamaqdır”.

Bir çox ekspertlərin fikrincə, bəzi keçmiş və indiki məmurların ölkə hüdudlarından kənarda daşınmaz əmlak və biznes sahibinə çevrilməsi onların müəyyən şirkətlər, özlərinə yaxın iş adamları tərəfindən idxal-ixrac əməliyyatları adı altında xaricə çıxardıqları pullar sayəsində reallaşıb. ”Məsələn, bir neçə il əvvəl məlum olmuşdu ki, sabiq nazir müavinlərindən birinin oğlu Slovakiyanın qərbindəki Bratislava şəhərində şərikli şirkət yaradıb. Nizamnaməyə görə, həmin şirkət logistika, topdan və pərakəndə ticarətlə məşğul olur. Lakin o da üzə çıxmışdı ki, söhbət əslində məmurların Azərbaycandan bu ölkəyə xeyli vəsait çıxarması üçün imkanlar yaratmaqdan gedirmiş” - deyə mövzu ilə bağlı söhbətləşdiyimiz ekspertlərdən biri vurğulayıb.

”Baş Prokurorluğun məlumatına nəzər saldıqda aydın olur ki, cinayətkar niyyətlərlə yaradılmış bir neçə məhdud məsuliyyətli cəmiyyətlərlə xarici ölkələrdə fəaliyyət göstərən şirkətlər arasında müxtəlif növ kənd təsərrüfatı məhsullarının alqı-satqısına dair müqavilələr bağlanıb, əldə olunan ümumilikdə 340 milyon ABŞ dollarından artıq məbləğdə pul vəsaiti (müvafiq dövrün məzənnəsi ilə 578 milyon manatdan artıq) isə Azərbaycan Respublikasında müvəkkil edilmiş bankın hesabına qaytarılmayıb. Bu qədər böyük vəsaitin sadəcə hansısa iş adamlarına məxsusluğunu düşünmək sadəlövhlük olardı. Belə böyük məbləğlər Azərbaycan reallığında bir qayda olaraq hansısa məmura, yaxud dolayı yolla bağlı şirkətlərin ixtiyarındadır” - müsahibimiz əlavə edib.

Başqa bir ekspert isə bildirib ki, zaman-zaman indiki və sabiq məmurlarımızın xarici ölkələrdə ümumi dəyəri on milyonlarla manatlıq daşınmaz əmlakları, biznesləri ortaya çıxır: ”Biz həmin əmlakların hansı vəsaitlə alındığını, yaxud həmin bizneslərin hansı pullarla qurulduğunu asanlıqla təxmin edirik. Söhbət əlbəttə ki, korrupsiya ilə əldə edilmiş çirkli vəsaitlərdən gedir. Lakin heç vaxt fikirləşmirik ki, sözügedən sabiq və hazırkı məmurlar bu qədər vəsaiti ölkədən hansı yollarla çıxarıblar. Zənnimcə, Baş Prokurorluğun Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində açılan məlum cinayət işləri haqqında bəhs etdiyimiz məqama aydınlıq gətirir. Aydın olur ki, ölkədən xaricə pul qaçırmağın əsas yollarından biri müəyyən biznes subyektləri yaradaraq onların əli ilə idxal-ixrac əməliyyatları çərçivəsində Azərbaycandan çıxarılan valyutanı qanunvericiliyi pozaraq məhsul və ya pul şəklində geri qaytarmamaqdır” - ekspert vurğulayıb.

Bəs belə işlərə qol qoyan sahibkarlarla bağlı cinayət işlərinin hansısa vəzifəli şəxslərədək uzanması mümkündürmü? Mütəxəssislər bunu da istisna etmirlər. Onların fikrincə, istintaqla sabiq, yaxud indiki məmurlardan kimlərinsə belə sahibkarlarla cinayət əlaqəsi üzə çıxarsa, onların qandallanması şübhə doğurmur. Son illərdə rüşvət və korrupsiyaya bulaşmış çox sayda yüksək vəzifəli şəxsin həbsə atılması bir həqiqəti ortaya qoyub: artıq Azərbaycanda heç bir məmur toxunulmaz deyil, xüsusilə də şəxsi maraqlarını dövlətin və xalqın mənafeyindən yüksək tutursa...

***Sənan Mirzə***

41_27 IYUl-QARA.qxd 11/21/2024 10:10 PM Page 4



# Azərbaycanla Ermənistan arasında məhkəmə çəkişməsi: Vurulan zərərə görə cavab verəcəklər

## Tofiq Zülfüqarov: "Ermənistanın işğalçı olması məsələsi qəbul olunsa, artıq məhkəmə bu və digər məsələlərə baxa və onlarla bağlı da qərar verə bilər"



***Xəbər verdiyimiz kimi, Azərbaycan 2024-cü il noyabrın 19-da Ermənistana qarşı Daimi Arbitraj Məhkəməsinə (Haaqada yerləşən) Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən çoxsaylı pozuntuların təfərrüatlarını əks etdirən əsas iddia sənədini təqdim edib.***

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb. Məlumata əsasən, sənəd Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq təqdim edilib. Bildirilib ki, bu iddia sənədi, 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana Arbitraj haqqında bildiriş göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son inkişafdır. Arbitraj məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş 2024-cü il yanvarın 12-də keçirilib.

Qeyd olunub ki, Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Bunun əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib. Ermənistanın beynəlxalq hüquq normalarını pozma halları arasında xüsusilə, onun onilliklər ərzində Azərbaycanın əhəmiyyətli bərpa olunan enerji layihələrinə çıxışına və ya onlardan faydalanmasına icazə verməkdən imtina etməsini qeyd etmək olar. Bunlara əvvəllər işğal olunmuş Ağdərə rayonundakı Sərsəng Su Anbarında yerləşən Tərtər Su Elektrik Stansiyası, İranla sərhəddə, Azərbaycanın keçmiş işğal olunmuş Cəbrayıl rayonunda yerləşən Xudafərin və Qız Qalası su elektrik stansiyaları layihələri, həmçinin əvvəllər istifadə olunmamış enerji potensialı, hidroenergetika daxil olmaqla bərpa olunan enerji mənbələri, habelə digər resurslar daxildir. Ermənistan tərəfi qanunsuz işğal dövründə Tərtər Su Elektrik Stansiyasını istismar edən qurumları lisenziyalaşdırıb və tənzimləyib, bu enerji mənbəyini qanunsuz olaraq öz daxili elektrik şəbəkəsi ilə əlaqələndirib və əlavə enerjini daxili enerji istehlakı üçün Ermənistana yönləndirib. Bundan əlavə, Ermənistan Azərbaycanın Xudafərin və Qız Qalası layihə sahələrinə girişinə mane olmaqla bu mühüm hidroenergetika layihələrinin tamamlanmasını 30 il gecikdirib və Azərbaycanın bərpa olunan enerji sektorunun inkişafına maneçilik törədib. XİN-in məlumatında vurğulanıb ki, Azərbaycan, öz enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən pozulması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinin Ermənistan tərəfindən qanunsuz istismarına və zərər vurulmasına görə təzminat tələb olunması fəaliyyətini davam etdirəcək.

Mövzu ilə bağlı sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a açıqlama verib. O bildirib ki, burada söhbət Azərbaycanın müxtəlif sahələr üzrə hüquqlarının Ermənistan tərəfindən pozulmasından gedir. "Dəymiş ziyanın bir hissəsinə aid hansısa iddialar irəli sürülüb. Əslində, bunları sübut etmək çox asandır. Digər tərəfdən, artıq bundan sonra müxtəlif ölkələrdən olan xarici şirkətlərə qarşı da iddialar qaldırıla bilər. Hamımız bilirik ki, Qarabağda İsveçrənin bahalı saatlar istehsal edən şirkəti bizim qızıl mədənlərimizi istifadə ediblər. Amma bu, tək belə fakt deyil. Bununla yanaşı, oxşar faktlar çoxdur. Orada həm bizim faydalı qazıntılarımızdan, həm enerji resurslarımızdan qanunsuz istifadə edilib. Azərbaycanın müraciətindən sonra Haaqa Məhkəməsində bütün bu məsələlərə baxılmalıdır. Bu məsələ ilə bağlı hansısa ilkin qərar qəbul olunmalıdır. Ermənistanın işğalçı olması məsələsi qəbul olunsa, artıq məhkəmə bu və digər məsələlərə baxa və onlarla bağlı da qərar verə bilər", - deyə o qeyd edib.

Siyasi şərhçi Elçin Alıoğlu isə "trend"ə yazdığı məqalədə qeyd edir edir ki, Rəsmi Bakı Ermənistandan ərazilərimizdəki təbii ehtiyatlardan və xüsusilə də enerjidaşıyıcıları mənbələrnindən qeyri-qanuni istifadə nəticəsində dəyən 2 milyard ABŞ dollarından artıq ziyanın ödənilməsini, işğal dövründə ölkəmizə vurulmuş ekoloji ziyanın bərpasını və Ermənistanın hərəkətlərinin beynəlxalq hüquq pozuntusu kimi tanınmasını tələb edir: "Rəsmi Bakının Haaqa məhkəməsindəki bu iddiası yalnız maddi ziyanı bərpa etməklə məhdudlaşmır, həm də beynəlxalq hüququn qorunması üçün mühüm bir presedent yaradır. Ekspertlər hesab edir ki, təzminatın məbləği resursların qanunsuz istifadəsi və infrastrukturun amortizasiyası da daxil olmaqla, milyardlarla ABŞ dollarına çata bilər. Azərbaycanın hökuməti ekoloji ziyanın ödənilməsini xüsusi vurğulayır, bu isə xüsusilə COP29-un Bakıda keçirilməsi kontekstində aktuallıq qazanır. Tarixi nümunələr, o cümlədən İkinci Dünya Müharibəsi zamanı qanunsuz resurs çıxarılmalarına görə Almaniyaya qarşı tətbiq olunan kompensasiyalar, belə iddialar üçün hüquqi pretsedentlərin mövcud olduğunu göstərir. Bu halda Ermənistan təkcə maddi ziyanı ödəməklə kifayətlənməyəcək, həm də beynəlxalq normaların pozulmasına görə cərimələr ödəməyə məcbur ola bilər. Azərbaycanın Ermənistan əleyhinə Haaqadakı Daimi Arbitraj Məhkəməsinə müraciəti güclü hüquqi bazaya, beynəlxalq normalara və konkret faktlara əsaslanır. Bu proses təkcə ədalətin bərpası üçün bir addım deyil, həm də Azərbaycanın beynəlxalq hüquqa olan bağlılığını nümayiş etdirir. Bu işlə bağlı hadisələr dövlətlərin suverenliyinə hörmətin və beynəlxalq hüquq normalarına riayət edilməsinin zəruriliyini vurğulayan mühüm presedent yarada bilər".

***Murad İbrahimli***

# Zəngəzur dəhlizi 4 ilə tam açılacaq



***"Azərbaycan və Türkiyə Çindən başlayaraq Londona qədər gedən çox vacib br dəhlizin parçasıdır".***

Bunu Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdülkadir Uraloğlu bildirib. O qeyd edib ki, hazırda Bakı-Tiflis-Qars marşrutu olsa da, bununla bağlı müəyyə gecikmələr var.

"Mütləq alternativlərə ehtiyac olduğu üçün Zəngəzur dəhlizi qiymətlidir. Azərbaycan tərəfindəki işlər olduqca yaxşıdır. Mən Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad bəylə zamanzaman görüşürəm, dünən də lazımi dəyərləndirmələri etdik. Türkiyə tərəfində də önümüzdəki aylarda çalışmağa başlayacağıq. 4 il müddətində bu çalışmaları bitirib fəaliyyətə başlayacağımızı düşünürəm"- Uraloğlu İTV-yə müsahibəsində bildirib.

# Agentlik sədri COP29 çərçivəsində tədbirdə iştirak etdi

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Rusiya Federal Su Ehtiyatları Agentliyinin təşkil etdiyi "Dəyişən iqlim şəraitində ekoloji cəhətdən davamlı su idarəetməsi" mövzusunda keçirilən tədbirdə iştirak edib.***

"Unikal" xəbər verir ki, Zaur Mikayılov tədbir zamanı qlobal çağırışlar və strateji prioritetlər, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında su ehtiyatlarının idarə olunması sahəsində əməkdaşlıq, davamlı və inteqrasiyalı su ehtiyatlarının idarə edilməsinin inkişafı, eləcə də dəyişən iqlim şəraitində adaptiv su idarəetmə modelləri mövzularında çıxış edib.

Sonda, sədr beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ekoloji tarazlığın uzunmüddətli qorunması istiqamətində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin mühüm təşəbbüslər həyata keçirdiyini vurğulayıb.

# Ceyhun Bayramov misirli həmkarı ilə danışıqlar apardı

***Noyabrın 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Misir Ərəb Respublikasının xarici işlər, miqrasiya və xaricdə yaşayan misirlilərlə iş naziri Bədr Əbdelati arasında telefon danışığı aparılıb.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı Azərbaycan ilə Misir arasında qarşılıqlı etimada əsaslanan dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli əlaqələrinin daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Beynəlxalq təşkilatlar və çoxtərəfli formatlar çərçivəsində əlaqələndirmə işlərinin təkmilləşdirilməsi, ölkələrimizin maraqlarına daxil olan istiqamətlərdə birgə səylərin artırılmasının vacibliyi qeyd olunub.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında aparılan müzakirələr, qlobal əhəmiyyətli bu tədbirin iqlim dəyişmələri ilə mübarizə sahəsində rolu və yaşıl enerji sahəsində Azərbaycan-Misir əməkdaşlığı üçün əlavə imkanlar yarada biləcəyi diqqətə çatdırılıb.

Telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

41_27 IYUl-QARA.qxd 11/21/2024 10:11 PM Page 5



# Prezident iki qurumu ləğv etdi - Sərəncam



***Prezident İlham Əliyev Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncamda deyilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Dövlət Tərcümə Mərkəzi" publik hüquqi şəxs ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxsin ləğv edilməsi ilə bağlı on gün müddətində zəruri tədbirlər görsün;

2.2. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin tərcümə və dövlət dilinin tətbiqi sahəsində funksiyalarının aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamın 1-ci hissəsi və 2.1-ci bəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin ləğvi ilə əlaqədar onların istifadəsində olan dövlət əmlakı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

# Gələn il Xankəndi və Ağdərədən büdcəyə gəlirlər daxil olacaq



***İşğaldan azad olunmuş ərazilərimiz ölkə iqtisadiyyatına yenidən inteqrasiya olur.***

"Unikal" xəbər verir ki, bu barədə Maliyyə Nazirliyinin İctimaiyyətlə əlaqələr və vətəndaş müraciətləri ilə iş şöbəsinin müdiri Mayis Piriyev bildirib.

O qeyd edib ki, 2025-ci ildə ilk olaraq Xankəndi şəhəri və Ağdərə rayonundan dövlət büdcəsinə gəlirlər daxil olmağa başlayacaq.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000



# Dərmanların dövlət reyestri "Elektron hökumət" portalına qoşulacaq

***"Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı genişlənib.***

"Unikal" xəbər verir ki, Nazirlər Kabineti bu barədə qərar verib.

Qərara əsasən, bu siyahıya Dərman vasitələrinin dövlət reyestri və Dərman vasitələrinin təqib və izləmə sistemi daxil edilib.

# Prezident gələn il böyük sosial islahatlar həyata keçirəcək

***"Gələn il pensiyaların indeksləşdirilməsi planlaşdırılır".***



"Unikal" xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında bildirib.

"Ölkə başçısı tərəfindən növbəti ildə böyük sosial islahatlar həyata keçiriləcək. Gələn il həm minimum əməkhaqqının, həm minimim pensiyanın artırılması, eyni zamanda sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır.

Ümumilikdə bu sosial islahat paketi pensiyaların indeksləşdirilməsi ilə birlikdə 3 milyon insanı əhatə edəcək. Düşünürəm ki, dövlət büdcəsi və icmal büdcə parlamentdə təsdiq olunduqdan sonra onun parametrləri təsdiq olunacaq", - deyə nazir bildirib.

***Anar Kəlbiyev***

# 2025-ci ildə Azərbaycanda Beynəlxalq Konfransın təşkili planlaşdırılır

***BMT-nin İqlim Dəyişmələri üzrə 29-cu Tərəflər Konfransı (COP29) çərçivəsində "İqlim, Təbiət və İnsanlar üçün Meşə: Meşələr üçün iqlim maliyyəsinin artırılması" mövzusunda yüksək səviyyəli toplantı keçirilib.***

"Unikal" xəbər verir ki, COP29 Sədrliyi və BMT-nin Meşələr Forumunun (UNFF) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə təşkilatçı tərəflərin nümayəndələri ilə birgə Braziliya, Birləşmiş Krallıq, Konqo Demokratik Respublikası, Kanada, Surinam və Yaponiyanın ətraf mühit nazirliklərinin rəsmiləri, həmçinin BMT-nin Ətraf Mühit Proqramı, Dünya Bankı, Yaşıl İqlim Fondu, Qlobal Ətraf Mühit Fondu və Asiya İnkişaf Bankının əməkdaşları iştirak edib.

Yüksək səviyyəli toplantıda aidiyyatı ekspertlər, rəsmi nümayəndələr iqlim dəyişikliyi fonunda meşələrin itirilməsi, meşə ekosisteminin deqradasiyası, meşələrlə bağlı mövcud problemlərin həlli yolu ilə Paris Sazişinin məqsədlərinə nail olunmasında iqlim fəaliyyətinin və siyasətinin gücləndirilməsi, meşələr üçün əlavə iqlim maliyyəsindən, o cümlədən mövcud innovativ maliyyələşdirmə mexanizmlərindən istifadə, ən yaxşı təcrübələrlə bağlı məlumat mübadiləsi və biliklərin idarə edilməsi məqsədilə qlobal səylərin gücləndirilməsi ətrafında müzakirələr aparıb.




Tədbirdə növbəti ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən irəli sürülən meşə mövzusunda beynəlxalq tədbirin keçirilməsi təşəbbüsü barədə məlumat verilib. Bildirilib ki, Azərbaycanda 2025-ci ildə "Dayanıqlı Meşəçilik və Biomüxtəliflik üçün Sinerji: Yaşıl Dünya naminə Əməkdaşlıq Dialoqu" adlı Beynəlxalq Konfransın təşkili planlaşdırılır. Konfransda meşəçilik və biomüxtəliflik sahəsində qlobal çağırışları müzakirə etmək üçün elm adamlarının, ekoloqların, dövlət rəsmilərinin, beynəlxalq təşkilatların, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələrinin bir araya gətirilməsi nəzərdə tutulur.

Azərbaycan tərəfinin İrəli sürdüyü təşəbbüsə BMT-nin Meşələr Forumu (UNFF) tərəfindən dəstək ifadə edilib.

# Sahibə Qafarova belaruslu həmkarı ilə görüşdü

***Milli Məclisin sədri Sahibə Qafarova Rusiyanın Sankt-Peterburq şəhərində Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ilə görüşüb.***



"Unikal"ın məlumatına görə, görüşdə Azərbaycan və Belarus arasında münasibətlərin bütün sahələrini əhatə etməklə, dostluq və qardaşlıq prinsiplərinə söykəndiyi qeyd edilib. Vurğulanıb ki, münasibətlərin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksək səviyyəli münasibətlərin mühüm rolu var. Spiker Sahibə Qafarova ali və yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin və imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyini diqqətə çatdırıb. Ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurla əməkdaşlıq etdiyi, beynəlxalq platformalarda bir sıra məsələlərdə bir-birinə qarşılıqlı dəstək verdiyi də bildirilib.

Natalya Koçanova ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və yenidən Milli Məclisin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib. O, Azərbaycanın sədrliyi ilə Bakıda COP29 kimi qlobal tədbirin uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb. O, Azərbaycan və Belarus Prezidentlərinin COP29 çərçivəsində təşkil olunan tədbirlər zamanı nitqlərini xatırladaraq, qeyd edib ki, dövlət başçılarımız həm tədbirin əhəmiyyəti, həm də beynəlxalq münasibətlər sistemində mövcud olan vəziyyət barədə geniş və obyektiv fikirlərini səsləndiriblər.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

41_27 IYUl-QARA.qxd 11/21/2024 10:11 PM Page 6



# Baş nazirdən şəhid ailələri ilə bağlı qərar



***Şəhid ailələrinin yaşayış sahəsi uçotuna dair yeni qaydalar təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qaydalara əsasən, yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəhid ailəsinin üzvü vəfat etdiyi halda, eləcədə hər hansı bir səbəbdən yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış şəxsə sonradan şəhid statusu verildiyi halda, həmin şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılacaq.

Uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılması üçün ailə üzvlərinin birgə razılığı əsasında ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri təmsilçi olaraq uçota alınmış şəxsin vəfat etdiyi gündən etibarən 3 ay müddətində yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə orqanına və yahud "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri"nə ərizə ilə müraciət etməlidir.

Ailə üzvlərinin birgə razılığı əsasında ailənin üzvlərindən birinin təmsilçi olması yerli icra hakimiyyəti başçısının inzibati və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin və ya "ASAN xidmət" Mərkəzinin yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışına əsasən notarial qaydada təsdiq edilməlidir.

Bununla yanaşı uçota alınmış şəxsin vəfat etməsi ilə onun ailə üzvlərinin sərəncamında olan yaşayış sahəsinin (sahələrinin) ailə üçün kifayət etdiyi müəyyən edildikdə uçota alınmış şəxsin uçotunun onun ailə üzvləri üçün saxlanılmasından imtina edilir.

# Leyla Əliyeva COP29-da nadir canlıların mühafizəsinə həsr olunan panel müzakirələrində

***Noyabrın 21-də IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (BTMİ) əməkdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Mühafizənin 60 ili: BTMİ-nin Qırmızı Siyahısı" mövzusunda panel müzakirələri təşkil olunub.***




IDEA-dan "Unikal"a verilən məlumata görə, tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İB-nin təsisçisi və rəhbəri Leyla Əliyeva qonaqları salamlayaraq nəsli kəsilməkdə olan bioloji növlərin mühafizəsinin qlobal ekosistem və biomüxtəlifliyin qorunmasında vacib rol oynadığını qeyd edib. Leyla Əliyeva vurğulayıb ki, canlı orqanizmlərin məhv olunmasının qarşısının alınması beynəlxalq həmrəylik və əməkdaşlıq mühitində birgə addımların atılmasını tələb edən qlobal çağırışdır. Daha sonra Cənubi Qafqazın zəngin təbiəti və buraya xas olan, lakin nəsli kəsilmiş bir sıra heyvan növləri barədə tədbir iştirakçılarına məlumat verilib.

IDEA İB tərəfindən 2011-ci ildən etibarən icra olunmuş fəaliyyətlərə toxunan Leyla Əliyeva bildirib ki, nadir canlıların qorunması, ölkəmizə xas olan unikal heyvan və bitki növlərinin mühafizəsi, eləcə də onların populyasiyasının bərpası təşkilatın əsas fəaliyyət istiqamətləri sırasında xüsusi yer tutur. IDEA İB-nin təsisçisi və rəhbəri BTMİ ilə əməkdaşlıq çərçivəsində 2012-ci ildə geniş ictimaiyyətə təqdim olunmuş Qafqazın "Böyük Beşliyi" layihəsini qeyd etdi. Bildirildi ki, Qafqaz bəbiri, ceyran, qonur ayı, boz canavar və imperator qartalının populyasiyasının qorunması və artırılması məqsədilə bir sıra addımlar atılıb.

Daha sonra Leyla Əliyeva qeyd edib ki, nəsli kəsilmiş zubrların populyasiyasının bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması məqsədilə 2017-ci ildən etibarən 46 zubr Avropanın müxtəlif ölkələrindən Şahdağ Milli Parkına gətirilib və 2028-ci ilədək zubrların sayının 100-ə çatdırılması nəzərdə tutulub. Eyni zamanda, ceyranların reintroduksiyası layihəsi və digər müvafiq tədbirlər nəticəsində ölkə ərazisində ceyran populyasiyasının 8 minə çatdırıldığı, eləcə də yüz minlərlə nərə balığı körpələrinin Xəzər dənizi və Azərbaycanın digər su hövzələrinə buraxıldığı bildirilib.

BTMİ-nin Şərqi Avropa, Şimali və Mərkəzi Asiya üzrə regional direktoru Oliver Avramoskinin moderatorluğu ilə keçirilən tədbir çərçivəsində çıxış edən BTMİ-nin baş direktoru Grethel Aguilar, "Conservation International" təşkilatının meşə strategiyası üzrə baş direktoru Jason Funk və "Birdlife International" təşkilatının baş meneceri Cathy Yitong Li BTMİ Qırmızı Siyahısında adlarının qeyd olunduğu canlıların mühafizəsi, eləcə də qlobal biomüxtəlifliyin birgə səylər və nəticəyönümlü fəaliyyətlər vasitəsilə qorunmasının əhəmiyyətinə dair fikirlərini müzakirə iştirakçıları ilə bölüşdülər.



## "Hər kəsi ilk Su Bəyannaməsinə qoşulmağa çağırıram" - COP29-un Prezidenti

***Su iqlim problemlərinin aradan qaldırılmasında həlledici rol oynayır. Buna baxmayaraq uzun illər su problemi qlobal iqlim müzakirələrindən kənarda qalmışdı.***

"Unikal" xəbər verir ki, bu fikirləri "İqlim, təbiət və insanlar üçün su həyat xəttinin təbliği" mövzusunda yüksəksəviyyəli tədbirin açılış mərasimində ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev deyib.

O qeyd edib ki, susuzluq problemi COP29 müzakirələrinin prioritet məsələlərindən biridir: "İqlim dəyişiklikləri ilə bağlı məsələlərin həllində susuzluq probleminə bütün aspektlərdən nəzər yetirməliyik. Çünki su həyatdır. Məhz bu səbəbdən COP29 Sədrliyi su məsələsini prioritetə çevirib.

Düşünürəm ki, dialoqları sürətləndirmək tərəfdaşlığın artırılmasına təkan verəcək. Biz iqlim fəaliyyəti çərçivəsində su tərəfdaşları tapmalıyıq. Fəaliyyətlərə təkan üçün Bakı Dialoqu mühümdür. Burada davamlılıq təmin olunmalıdır. Hər kəsi ilk Su Bəyannaməsinə qoşulmağa çağırıram".

## Hesablama Palatasının sədri təkliflər verdi

***Hesablama Palatasının sədri Vüqar Gülməmmədov işsizlikdən sığorta fondunun büdcəsi ilə bağlı bir sıra təkliflər verib.***

V.Gülməmmədov bu barədə Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında danışıb.

"Büdcə sistemi haqqında Azərbaycan Respublikasının büdcədənkənar dövlət fondlarının büdcələrinə dair qanunların strukturu, orada əks olunmuş göstəricilər, əlavə edilmiş sənədlər, məlumatların çeşidi, həmçinin izahatda əks etdirilməli olan məlumat və göstəricilərə dair tələbləri müəyyənləşdirən, büdcə zərfinə daxil edilməsi nəzərdə tutulan əlavələrin olmasını təklif edirik. Bu təklifi əvvəlki illərdə də təqdim etmişik.

Zəruri tənzimləmələrin həyata keçirilməsi ilə icbari dövlət şəxsi sığorta üzrə vəsaitlərin Dövlət Sosial Müdafiə Fondunun büdcəsində müvafiq qaydada əks etdirilməsini;

2023-cü ilin ikinci yarısından investisiya fəaliyyətinin tənzimlənməsinə dair hüquqi aktların qüvvəyə minməsi və investisiya gəlirləri əldə olunmaqla müəyyən olunmuş qaydada istifadə olunur. İnvestisiya fəaliyyəti ilə bağlı göstəricilərin də parlamentə təqdim olunmuş DSMF-nin gəlir və xərc hissəsində əks olunmasını;

Hüquqi aktlara əsasən, icmal büdcənin əsas hissəsi hesab edilən fondların gəlir və xərclərinə dair göstəricilərin vahid büdcə tənifatının funksional və iqtisadi təsnifatı paraqraflar səviyyəsində tərtib edilməsini;

Fondların büdcədənkənar büdcələrinin tərkibinə yeni yanaşmanın tətbiq olunmasının zəruriliyini;

Büdcədənkənar dövlət fondlarının taraz büdcə prinsipi ilə deyil, gəlir və xərc potensialı, eləcə də dövlət öhdəlikləri diqqətə alınmaqla, profsit və ya kəsr məbləğinin müəyyənləşməsi ilə tərtib olunması, eləcə də kəsrin maliyyələşmə mənbələrinin layihədə əks etdirilməsini təklif edirik", - deyə palatanın sədri bildirib.



## Milli Məclisdə yeni köməkçilər təyin edildi

***Milli Məclisin sədrinin müavinlərinə yeni köməkçilər təyin edilib.***

3-cü dərəcə dövlət müşaviri Kəmalə Əzimova vitse-spikerin köməkçisi vəzifəsinə gətirilib.

1979-cu il təvəllüdlü dövlət qulluqçusu ixtisasca hüquqşünasdır. O, Prezident İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib. Kəmalə Əzimova bundan əvvəl İqtisadi və sosial qanunvericilik şöbəsini Humanitar məsələlər sektorunun müdiri vəzifəsində çalışıb.

Kənan Axundov da sədr müavinin köməkçisi təyin olunub. 1989-cu il təvəllüdlü dövlət qulluqçusu daha əvvəl Milli Məclisin Dövlət qulluğu kadr məsələləri şöbəsinin Şəxsi işlərin aparılması sektorunun müdiri vəzifəsində işləyib. Dövlət qulluğunun müşaviri ixtisas dərəcəsinə sahib olan Kənan Axundov beynəlxalq münasibətlər üzrə mütəxəssisdir.

Parlament sədrinin köməkçisi vəzifəsində çalışan Emin Abdulov isə bu vəzifədən azad olunub.

Qeyd edək ki, Milli Məclisin sədr müavinləri Əli Əhmədov, Ziyafət Əsgərov, Musa Qasımlı və Rafael Hüseynovdur.

## 2025-ci ildə minimum istehlak səbətinin tərkibinə yenidən baxılacaq

***"2025-ci ildə minimum istehlak səbətinin tərkibinə yenidən baxılacaq".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə keçirilən iclasında İqtisadiyyat Nazirliyinin Dayanıqlı İnkişaf və sosial siyasət şöbəsinin müdiri Hüseyn Hüseynov deyib.

"Minimum istehlak səbətinin tərkibinə baxılması məsələsi iqtisadiyyat Nazirliyinin daim gündəmdə saxladığı məsələdir. Bununla bağlı müəyyən İşçi Qrup fəaliyyət göstərir. Həmin İşçi Qrupunun ən sonuncu görüşü 2021-ci ildə baş tutub. Səbətin tərkibinə baxılıb və saxlanılması qərarına gəlinib. 2025-ci ildə İşçi Qrupun yenidən görüşünü planlaşdırırıq. Mövcud iqtisadi vəziyyətə uyğun minimum istehlak səbətinin tərkibinə yenidən baxılacaq", - deyə H.Hüseynov bildirib.

# "Prezidentin minimum pensiya və əməkhaqqının artırılması ilə bağlı tapşırıqları var"

## Vüqar Bayramov: "Məqsəd növbəti ildə sosial paketin genişlənməsi istiqamətlərinin müəyyənləşdirilməsi və buna uyğun olaraq sosial paketin dərinləşməsinin həyata keçirilməsidir"

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin əhəmiyyətindən, ehtiyac meyarının ləğv edilməsindən, minimum pensiyanın nə qədər artırıla biləcəyindən və büdcədə 70 dollardan götürülən neft qiymətinin aşağı olacağı təqdirdə hansı vasitələrdən istifadə olunacağından danışıb.***

***-Vüqar bəy, sizin də üzvü olduğunuz Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Vergi Məcəlləsinə bir sıra dəyişikliklərin edilməsi təklif olunub. Bu dəyişikliklərin hansı üstünlükləri olacaq?***

-Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər praktiki olaraq bir neçə istiqaməti özündə ehtiva edir. Dəyişikliklərin əsas istiqamətlərindən biri vergi güzəştlərinin dairəsinin genişləndirilməsi, xüsusilə, mikrosahibkarlar üçün vergi güzəştlərinin tətbiqinin həyata keçirilməsidir. Dövlət-özəl tərəfdaşlığı çərçivəsində, iri sərmayələrin cəlb edilməsi, yaşıl iqtisadiyyatın dəstəklənməsi, qeyri-leqal fəaliyyət göstərən sahibkarlığın kiçildilməsi, vergi uçotu nəzarətinin daha da gücləndirilməsi, eləcə də beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması kimi istiqamətlər var. O cümlədən, mədəniyyət sektorunda güzəştlərin tətbiq edilməsini özündə ehtiva edir. Belə ki, dövlət-özəl tərəfdaşlıq müqaviləsində 30 ildən çox olmayan mənfəət, əmlak, torpaq və idxalda əlavə dəyər vergisi üzrə güzəştlərin tətbiqi nəzərdə tutulur. Bu zaman həmin layihələrin dəyəri 30 milyon manatdan çox olmalıdır, maksimum müddətin isə 49 il olması nəzərdə tutulur. Həmçinin, yerli avtobus istehsalçılarına vergi güzəştlərinin tətbiqi nəzərdə tutulub. Sənaye Məhəllələrində vergi güzəştləri davam etdirilir. Azərbaycanda istehsal olunan avtobusların satışının, habelə hüquqi şəxslər tərəfindən istehsal məqsədilə gətirilən avtobusların ehtiyat hissələrinin idxalının 8 il müddətində əlavə dəyər vergisindən azad edilməsi var. O cümlədən, torpaq və əmlak vergisi üzrə güzəştlər də nəzərə alınıb. Kiçik sahibkarlığın təşviq edilməsi baxımından mikrosahibkarlar üçün 45 min manatadək olan gəlirə 75 faiz güzəşt tətbiq olunacaq. Tibbi turizmdə keşbek rejimi tətbiq olunacaq. O cümlədən, mədəniyyət sektorunda güzəştlər nəzərdə tutulub. Beş il müddətinə torpaq vergisindən tam, mənfəət vergisindən 90 faiz güzəşt tətbiq olunacaq. Xidmətlər üzrə ƏDV-nin 50%-nin geri qaytarılması reallaşacaq. Eyni zamanda, mənfəət gəlir vergisi üzrə güzəştlərin faizi 70-dən 90-na qədər endiriləcək. Güzəşt obyektlərinin sayı isə artırılır. Teatr, muzey, simfonik orkestr və film prodüserləri də bura əlavə olunur. Bu, həm vətəndaşlarımızın, həm də həmin sektorda çalışan hüquqi şəxslərin daha çox gəlir əldə etməsinə, fəaliyyətlərini genişləndirməsinə imkan yaradacaq.

***-Onu da qeyd etmisiz ki, 2025-ci ildən etibarən ehtiyac meyarının ləğv edilməsi və yalnız yaşayış minimumundan istifadə olunması daha məqsədəuyğun olardı. Bunun olması nə kimi imkanlar yarada bilər?***

-Ehtiyac meyarı artıq xeyli müddətdir ki, yaşayış minimumu ilə eyniləşib. Ona görə təklifimiz ondan ibarətdir ki, beynəlxalq praktikanı nəzərə almaqla yaşayış minimumu anlayışından istifadə olunsun. Bu da birbaşa onunla bağlıdır ki, əksər ölkələrdə ehtiyac meyarı anlayışı yoxdur. Belə ki, ünvanlı sosial yardımda da artıq yaşayış minimumu anlayışından istifadə olunsun. Bu təbii ki, oxşar iki meyardan istifadənin qarşısını almış olar. Yaşayış minimumu artdıqca, ünvanlı sosial yardım məbləğlərində də artımların müşahidə edilməsinə gətirib çıxara bilər. Doğrudur, ehtiyac meyarı son illər artır. Bu da ünvanlı sosial yardım proqramında yardım məbləğlərinin artmasına gətirib çıxarır. Üçüncü ildir ki, ehtiyac meyarı ilə yaşayış minimumu eyniləşib. Bu baxımdan, yaşayış minimumu anlayışından istifadə olunması və artımların həmin anlayış çərçivəsində həyata keçirilməsi, buna uyğu olaraq ünvanlı sosial yardımın məbləğinin müəyyənləşdirilməsi vacibdir.

***-Müzakirə olunan məsələlərdən biri də Hesablama Palatasının təqdim etdiyi rəydə "2025-ci il üzrə proqnozlara əsasən, minimum pensiya məbləğinin (280 manat) minimum əməkhaqqı məbləğinə (400 manat) nisbətinin 70% olacağının nəzərdə tutulmasının" qeyd edilməsidir. Amma dövlət başçısının minimum pensiyanın artırılması ilə bağlı tapşırığı var. Sizcə, minimum pensiya nə qədər arta bilər?***

-Cənab Prezident İlham Əliyev tərəfindən minimum pensiyanın və minimum əməkhaqqının artırılması ilə bağlı tapşırıqlar var. Son aylar uyğun dövlət qurumları tərəfindən qiymətləndirmə aparılır. Burada da məqsəd növbəti ildə sosial paketin genişlənməsi istiqamətlərinin müəyyənləşdirilməsi və buna uyğun olaraq sosial paketin dərinləşməsinin həyata keçirilməsidir. Biz minimum pensiya və minimum əməkhaqqının artırılması ilə bağlı təkliflərimizi təqdim etmişik. Təkliflərimiz ona əsaslanır ki, 2023-2024-cü illərdə ölkədə qeydə alınan inflyasiya səviyyəsi nəzərə alınmaqla, minimum pensiya və minimum əməkhaqqında artımlar həyata keçirilsin. Bizim təkliflə əsasən, hər iki istiqamətdə artımların ikirəqəmli olması məqsədəuyğundur. Sözsüz ki, bu artımlar fiskal imkanlarımız çərçivəsində həyata keçiriləcək. Bu artımlar 2025-ci ildə nəzərdə tutulan sosial öhdəliklərə uyğun olaraq reallaşacaq. Büdcə xərclərində sosial istiqamətə yönəldilən vəsaitlərin həcmi 17 milyard manata yaxındır. Bunlarla yanaşı, digər tərəfdən büdcə xərclərinin 43 faizi birbaşa sosial istiqamətə yönəldilən vəsaitlərdir. Sosial müdafiə və təminata 4 milyard 800 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu da təbii ki, sosial istiqamətdə artımların həyata keçirilməsi anlamına gəlir. Büdcədə əks olunan rəqəmlər ondan xəbər verir ki, növbəti il sosial paket genişlənəcək. Bu daha çox vətəndaşlarımızın sosial təminatının daha yaxından müdafiəsinə imkan verəcək. Cənab Prezidentin göstərişinə uyğun olaraq bu istiqamətdə həyata keçirilən siyasət daha çox vətəndaşımızın sosial təminat tədbirlərindən faydalanamsına imkan yaradacaq.



***-Büdcə müzakirəsi zamanı maliyyə naziri Samir Şərifov çıxışında bildirib ki, cari ilin büdcəsində neftin qiymətini 60 dollardan 75 dollara kimi yüksəltmişik. "Növbəti il biz bu qiyməti 5 dollar az götürmüşük. Əgər neftin qiyməti enərsə, mənfi təsirləri qarşılaya bilmək üçün ehtiyat addımlarımız var", - deyə nazir qeyd edib. Neftin qiyməti azalarsa, hansı ehtiyat tədbirlər görülə bilər?***

-Ümumiyyətlə, dövlət büdcəsinin gəlirlərinin 51 faizi qeyri-neft sektorunun payına düşür. Qalan hissəsi isə neft sektoruna aiddir. Neft sektorunun payında da Dövlət Neft Fondunun transferləri xüsusi paya malikdir. Neftin dünya bazar qiyməti büdcə gəlirlərinin formalaşması və dövlət aktivlərimiz baxımından vacibdir. 2025-ci ilin dövlət büdcəsinin gəlirlərinin formalaşmasında hər hansı çətinliyin olacağı gözlənilmir. Dövlət Neft Fondu vəsaitlərini büdcəyə transfer edə biləcək. Bu da büdcə gəlirlərinin formalaşmasına təsir göstərəcək. Qeyri-neft sektoru üzrə öhdəliklərin yerinə yetirilməsində hər hansı çətinlik yoxdur. Son qiymətləndirmələr göstərir ki, qeyri-neft sektoru da bu istiqamətdə öz öhdəliklərini yerinə yetirə biləcək. O baxımdan neftin büdcədəki qiyməti 70 dollar nəzərdə tutulub. Növbəti ildə orta qiymət nisbətən aşağı olsa da, həm qeyri-neft sektorundan daxilolmalar, həm də Dövlət Neft Fondunun ödənişləri hesabına büdcənin gəlirlərinin təmin edilməsi mümkün olacaq. Neftin dünya bazar qiyməti aşağı olsa belə, bu zaman Dövlət Neft Fondunun transferləri üçün hər hansı çətinlik yaranmayacaq.

***Anar Kəlbiyev***

# Sabiq nazirlərimizin "korrupsiya nifrəti"

## Keçmiş yüksək çinlilərin absurd açıqlamaları: hamısı vəzifədə olarkən rüşvət və yeyintiyə qarşı mübarizə apardıqlarını deyirlər... - Neyləyək, gülək, yoxsa ağlayaq?

***“Pul elədir ki, adamı dingildədir, oynadır. Varsa, özünü xaricdə də göstərəcək, burda da, toyda da, ad günündə də” Bunu keçmiş maliyyə naziri Əvəz Ələkbərov təzəlikcə “Gününsəsi.info”-ya müsahibəsində bildirib.***

“Nazir işlədiyim dövrdə var-dövlət yığmadım. Vicdanla deyirəm ki, işlədiyim, işdən çıxdığım dövrdə nə əmlakım olub, nə də başqa bir şey. Birincisi, xaricdə pul saxlamaq da asan deyil. İkincisi də, bu yolun yolçusu deyiləm. Üçüncüsü isə açığı, çox vardövlətdən, puldan qorxuram. Atam deyərdi, çox pul arxasınca çox şey gətirir, bəladı. Amma indi bircə nəfər desin ki, mən kiməsə təmannalı iş görmüşəm. Onlarla adamı qovmuşam yanımdan - bu kimi şeylərə görə” - deyə, o bildirib.

Qeyd edək ki, Azərbaycanda vaxtilə yüksək post tutmuş məmurların vəzifələrini itirdikdən sonra KİV-ə oxşar məzmunlu müsahibə və açıqlama verməsi son vaxtlar adiləşib. Məsələn, sabiq xarici işlər naziri Elmar Məmmədyarov hələ vəzifədə ikən illər əvvəl Nyu-Yorkda dəyəri milyonlarla dollarlıq 2 bahalı mənzil alması ilə bağlı yayılan xəbərə vəzifəsini itirdikdən sonra belə münasibət bildirmişdi: ”Hansı bankla əməliyyat etmişəm, yazışmaların hamısı var. Evdə bununla bağlı beş kiloqrama yaxın sənəd var, hamısını saxlayıram. Ona görə də mən rahatam. Bu, mənə qarşı kampaniya idi, özü də bilirəm ki, bunun arxasında kim dayanırdı. Amma bu böhtanların heç biri mənə dəymir, mən elə şeylərə fikir vermirəm”. Əslində buna münasibət bildirmək də doğru olmazdı, çünki eks-nazir hansısa sənədlərdən danışır, ancaq vacib məqamın üstündən sükutla keçirdi: həmin mənzillərin alındığı milyonlarla dolların qaynağı nədir? Sadəcə korrupsiya iddiasını böhtan adlandırmaqla kifayətlənir. Nazir olarkən rəhbərlik etdiyi qurumu rüşvət və yeyinti yuvasına çevirməsinin DTX əməliyyatı ilə təsdiqləndiyi bir şəraitdə Məmmədyarovun böhtandan danışması həqiqətən də absurdun pik nöqtəsidir.

Hələ sabiq təhsil naziri Misir Mərdanova nə deməli? O, keçən il yerli KİV-ə müsahibəsində elə beləcə də demişdi: ” “Misir Mərdanov bütün fəaliyyəti dövründə heç kimdən rüşvət almayıb. Harada işləmişəmsə, çalışmışam ki, düzgün işləyim, vətənimə, xalqıma, millətimə xidmət edim və etmişəm də. Mən bu gün onun nəticəsini görürəm. Hara gedirəmsə, mənə hörmətlə yanaşırlar... Mən və ailə üzvlərim, övladlarım cəmiyyətdə adi adamların ailə üzvlərindən, övladlarından heç zaman seçilməyiblər. Aza da, çoxa da qane olmuşuq...”



Mərdanovun dedikləri sözün həqiqi mənasında heyrət doğurur: onun nazir olduğu dövrdə Azərbaycan təhsilinin rüşvət və korrupsiyanın girovuna çevrildiyini bilməyən varmı? Axı aradan çox da zaman keçməyib: cəmi 10 il əvvələdək təhsil və rüşvət, təhsil və yeyinti sözlərinin az qala sinonimləşdiyini necə unutmaq olar? Axı danılmaz faktdır ki, böyük əksəriyyət üçün Mərdanovun nazir olduğu dövrdə dərsliklərdən məktəb tikintisinə, müəllimlərin işə qəbulundan tələbə köçürmələrinədək az qala təhsillə bağlı hər məsələ qaranlıq və şübhə dolu məqamlarla “zəngin” idi. Məgər “fondpulu”, “süpürgəpulu”, “8 martpulu” kimi “terminlər” dilimizə məhz Misir müəllimin təhsilə rəhbərlik etdiyi dövrdə daxil olmadımı? Eyni şagird tutumuna malik və daha keyfiyyətli məktəbi Təhsil Nazirliyinin tamamilə korrupsiyalaşmış tikinti idarəsinin hardasa 4-5 dəfə şişirdilmiş qiymətlərlə inşa etdiyi ortaya çıxmadımı? Həmin idarənin rəhbərinin elə sabiq nazirin öz yaxın qohumu olduğu sanki unudulubmu?

Daha bir keçmiş oliqarx - sabiq nəqliyyat naziri Ziya Məmmədov isə oğlu Anar Məmmədovun Virciniya adalarındakı bir şirkətdə 41 milyon funt sterlinqə (85 milyon manat), Britaniyanın şimal-qərbində isə 22 restorandan ibarət ”KFC franchise” şəbəkəsinə sahib olması barədə xəbərlərə belə reaksiya verməşdi: “O xəbəri yazan kimdirsə, getsin o restoranı tapsın. Sonra o restoranı həmin adama bağışlayacam. Otuz ildir ki, belə cəfəngiyyat şeylər yazırlar, məndən əl çəksinlər... Mənim nəyim varsa, aşkardadır. Mən gizlində iş görən deyiləm. Restoran elə bir obyektdir ki, onu gizləmək mümkün deyil. Yalandır, böhtandır. Bir restoranım var, o da kəndimizin başındadır...”

Bu günlərdə oğul Məmmədovun ”KFC” restoranlarının olduğu təsdiqləndi, o ayrı məsələ. Lakin bizi maraqlandıran Ziya Məmmədovun da fürsət düşdükcə korrupsiya, rüşvət hesabına böyük sərvət topladığına dair yazılanları yalan və böhtan adlandırmasıdır. Hətta vaxtilə dolanışıq üçün doğulduğu, elə indi də yaşadığı Ucar rayonunda mal-qara saxlayıb yonca, taxıl əkdiyini demişdi. Halbuki keçmiş nazirin illər uzunu yol çəkilişinə, körpü tikintisinə, London taksilərinin alınmasına, Bakıda ”nəqliyyatın intellektual idarəetməsinə” dövlət büdcəsindən ayrılan yüz milyonlarla manatı necə səmərəsiz xərclədiyi, həmin böyük pulları mənimsəmə predmetinə çevirdiyini bilməyən yoxdur. İntəhası, Ziya müəllimi dindirəndə dolanışıq, gün-güzəran haqqında elə sözlər danışır ki, adam az qalır cibindəki son qəpiyi belə ona bağışlasın.

Uzun sözün qısası, vəzifədə olduğu müddətdə ailə üzvlərinin, qohum-əqrəbalarının adına şirkətlər quran, milyonluq villalara, bahalı avtomobillərə yiyələnən, ölkə kənarında belə daşınmaz əmlak, biznes sahibi olan məmurlarımız kreslolarını itirdikdən sonra özlərini cəmiyyətə ”süddən çıxmış ağ qaşıq” kimi təqdim etmək yarışına giriblər. Görünür, ya camaatımızın unutqan olduğuna bel bağlayırlar, ya da hər şey məşhur məsələdə deyildiyi kimidir: ”Bəzən insanlar bir yalanı o qədər danışırlar ki, sonra həmin yalanın həqiqət olduğuna özləri də inanırlar”.

Sabiqlərimizin yaxın tarixdəki gerçəklikləri göz-görəti təhrif etməyə çalışarkən bunlardan hansına güvənirlər? Bu suala cavab tapmağı oxucularımızın ixtiyarına buraxırıq...

***Toğrul Əliyev***



# Nazir psixiatriya xəstəxanasının direktorunu işdən çıxardı

***2 nömrəli klinik psixiatriya xəstəxanasının direktoru İlqar Əfəndiyev vəzifəsindən azad edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bununla bağlı səhiyyə naziri Teymur Musayev əmr imzalayıb.

Nazirin digər əmri ilə Leyla Beşirova 2 nömrəli klinik psixiatriya xəstəxanasının direktoru vəzifəsinə təyin edilib.

***Murad İbrahimli***

# COP29-da ekoloji təmiz nəqliyyat vasitələri ilə bağlı müzakirələr

***Ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması ilə bağlı görülən işlər COP29 çərçivəsində təqdim olunub.***

“Unikal” xəbər verir ki, COP29-un onuncu günündə Mavi Zonada “Urbanizasiya / Nəqliyyat / Turizm” günü çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən keçirilən yüksəksəviyyəli dəyirmi masada “Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə görülən işlər və əldə olunan nəticələr”in təqdimatı keçirilib.

Azərbaycan Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Gülnaz Cavadova daha təmiz dünya və daha dayanıqlı gələcəyin formalaşdırılmasında karbon izini azaltmağa yönəlmiş ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin rolunu xüsusi vurğulayaraq, ölkəmizdə bu sahədə aparılan islahatlar barədə məlumat verib.

Təqdimatda biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya çərçivəsində ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması istiqamətində görülən tədbirlər, o cümlədən aidiyyəti dövlət qurumlarının təşəbbüsü ilə ölkəmizdə tətbiq olunan vergi və gömrük güzəştləri, habelə maliyyə əlçatanlığının artırılmasını hədəfləyən güzəştli kredit qaydaları barədə məlumat verilib. Qeyd olunub ki, təşviq sahəsində görülən işlər nəticəsində idxal olunan elektrik nəqliyyat vasitələrinin xüsusi çəkisi 2021-ci ildəki 0,19 faizdən 2023-cü ildə 3,5 faizə yüksəlib.

Eyni zamanda, elektrik enerjisi doldurma infrastrukturun inkişafı sahəsində “Azərişıq” ASC tərəfindən həyata keçirilən tədbirlərin və Vahid Elektrikdoldurma Platformasının əhəmiyyəti vurğulanıb. Bildirilib ki, hazırda “Azərişıq” ASC və digər dövlət təşkilatları ilə yanaşı, o cümlədən özəl sektor nümayəndələrinin təşəbbüsləri nəticəsində ümumilikdə 300-dən çox elektrikdoldurma cihazı quraşdırılıb.

Təqdimatda qeyd olunub ki, ölkəmizdə ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinə marağın və istifadə səviyyəsinin artırılmasına yönəlmiş kompleks tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

41_27 IYUI-QARA.qxd 11/21/2024 10:11 PM Page 9



# "İqlim dəyişmələri gender əsaslı bərabərsizlikləri dərinləşdirir" - Muxtar Babayev



***Bu gün COP29-un gender bərabərliyinə həsr olunmuş tematik günüdür. Bu gün gender bərabərliyinin təkcə fundamental insan hüququ deyil, həm də effektiv və ədalətli iqlim fəaliyyətinin təməl daşı olduğunu qlobal arenada xatırladır. Bildiyimiz kimi, iqlim dəyişikliyinin təsirləri neytral deyil. Onlar mövcud bərabərsizlikləri, o cümlədən gender əsaslı bərabərsizlikləri dərinləşdirir. Qadınlar və qızlar xüsusilə həssasdırlar.***

"Unikal" xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti Muxtar Babayev COP29 çərçivəsində keçirilən "Şəffaflıqda gender" mövzusunda yüksəksəviyyəli tədbirdə çıxışı zamanı deyib.

O bildirib ki, bir-biri ilə əlaqəli iqlim və biomüxtəliflik böhranları milyonlarla insanı yoxsulluğa sürükləyə və ərzaq təhlükəsizliyinə səbəb ola bilər. Qadınlar və qızlar, həmçinin həll yollarının ön cəbhəsindədirlər, iqlim çağırışlarının həllində davamlılıq, innovasiya və liderlik nümayiş etdirirlər. Bu, qadınların rolunu təkcə iqlim fəalları kimi deyil, həm də cəmiyyətimizin ürəyi, analarımız, bacılarımız və qızlarımız kimi tanımağı və qiymətləndirməyi həyati əhəmiyyətli edir. Onların səsləri və töhfələri icmalarımızın təməlini formalaşdırır və davamlı gələcək üçün baxışımızın mərkəzində olmalıdır.

# Növbəti sertifikasiya imtahanlarına bu müəllimlər çağırılacaq

***Elm və təhsil naziri Emin Əmrullayevin müəllimlərin 2025-ci ildə keçiriləcək sertifikasiya imtahanları ilə bağlı açıqlaması sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.***

Xatırladaq ki, nazir parlamentdə 2025-ci ilin dövlət büdcəsinin dünən keçirilən müzakirəsi zamanı deyib ki, gələn il 20 minədək müəllimin sertifikatlaşdırmaya cəlb olunması nəzərdə tutulub.

Lakin nazir gələn il sertifikatlaşdırmaya cəlb olunacaq təhsilverənlərin hansı fənn müəllimləri olacağını açıqlamayıb.

Sosial şəbəkələrdə açılan müzakirələrdə əsas sual budur: gələn il keçiriləcək sertifikasiya imtahanlarına hansı fənn müəllimləri cəlb olunacaq?

Modern.az-ın məlumatına görə, Elm və Təhsil Nazirliyinin bununla bağlı açıqlamasının gələn ilin əvvəlində veriləcəyi gözlənilir.

Qeyri-rəsmi məlumata görə, 2025-ci ildə tarix və coğrafiya müəllimlərinin sertifikasiyaya cəlb olunması nəzərdə tutulur.

Xatırladaq ki, 2022-2024-cü illərdə ibtidai sinif, Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, infomatika, xarici dil (ingilis dili, rus dili, Azərbaycan dili (rus bölməsi), alman dili, fransız dili) fənlərini tədris edən 65 minə yaxın müəllim sertifikalaşdırmadan keçiblər.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, sertifikatlaşdırmanın nəticəsinə uyğun olaraq test imtahanı mərhələsində 50 baldan yuxarı nəticə göstərən müəllimlərin vəzifə maaşına 35 faiz, keçid balını (30 bal) toplayan müəllimlərin vəzifə maaşına isə 10 faiz aylıq əlavələr edilir.

Elm və Təhsil Nazirliyinin məlumatına görə, 2026-cı ilə qədər 135 min təhsilverənin sertifikatlaşdırmaya cəlb olunması planlaşdırılır.

# DSMF-nin xərcləri artırılır

***Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üzrə xərclərinin maliyyələşdirilməsi üçün maliyyə mənbəyi 7 milyard 676 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 727 milyon manat (və ya 10,5%) çoxdur.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında bildirib.

"Maliyyə mənbəyinin 7 milyard 617 milyon manatlıq hissəsini Fondun gəlirləri, 59 milyon manatlıq hissəsini isə Fondun əvvəlki illərdə yaradılmış ehtiyatından 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsait təşkil edir. Növbəti ildə Fondun xərcləri 7 milyard 676 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilə nisbətən 727 milyon manat (və ya 10,5%) çoxdur.

Fondun 2025-ci il üçün gəlirlərinin 78,1% və ya 5 milyard 997 milyon manatının MDSS daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 519 milyon manat və ya 9,5 % çoxdur", - deyə komitə sədri bildirib.

# Oqtay Şirəliyevin mükafatlandırdığı şöbə müdiri barədə yeni iddialar

## "Plastik cərrah" qalmaqalı səngimir - İttihamlarda adı keçən Səidə Rüstəmova sabiq nazirin kadrıdır?



***Mətbuatdan məlum olduğu kimi, bir müddət əvvəl ABŞ-də yaşayan jurnalist Qənirə Ataşova öz instaqram hesabında 50-yə yaxın plastik cərrahın adını paylaşaraq onları, həmçinin Səhiyyə Nazirliyini saxtakarlıqda ittiham edib. O, həmin həkimlərin nazirliyə rüşvət verərək ixtisaslarını dəyişdiklərini iddia edib. Sitat: "Azərbaycanın estetik cərrahiyyəsinin üzü... Səhiyyə Nazirliyinə 30 min manat verib bir gecədə ixtisas dəyişən həkimlərin siyahısı tərtib edilib.***

2011-ci ildən sonra Azərbaycanda rezidentura təhsili tətbiq olunur. Qanuna əsasən, rezidenturanı bitirməyənlər ixtisaslı həkim ola bilməz. Amma təqdim etdiyim siyahıdakı həkimlərin heç biri estetik cərrahiyyə üzrə rezidentura təhsili almayıb. Sual yaranır, bəs necə oldu ki, bu adamlar bir gecədə estetik cərrah oldular?"

Q.Ataşova, həmçinin sözügedən cərrahların daha da inandırıcı görünmək üçün xaricdə qısamüddətli kurslara qatıldıqlarını qeyd edib: "Təsəvvür edin, gedib bir-iki gün xaricdə "təhsil" alır, sonra isə böyük fəxrlə geri qayıdıb, "beynəlxalq sertifikatlı estetik cərrah" olduqlarını iddia edirlər. Amma diqqət edin, bu kurslar adi izləyiciləri də qəbul edir. Yəni, istəsəniz, siz də gedib orada oturub özünüzü "beynəlxalq mütəxəssis" kimi hiss edə bilərsiniz.

Sənədlərdəki imzanın müəllifləri Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsinin müdiri Səidə Rüstəmova və nazirin müavini İlqar Qasımovdur".

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi isə qalmaqalla bağlı bunu bildirib: "Plastik cərrahiyyə ixtisası üzrə qeyri-qanuni fəaliyyət göstərən şəxslər barədə Analitik Ekspertiza Mərkəzi tərəfindən 25 dekabr 2023-cü il tarixindən 23 fevral 2024-cü il tarixinədək araşdırma və nəzarət tədbirləri görülüb. Eyni zamanda bu məsələ ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən də müvafiq araşdırma həyata keçirilib.

Siyahıda adları göstərilən şəxslərin qeyd olunan müəssisələrdə fəaliyyətlərinin araşdırılması məqsədilə ümumilikdə 35 plandankənar (növbədənkənar) yoxlama aparılıb, aidiyyəti üzrə şəxslərin fəaliyyəti hər bir müəssisədə ayrıca araşdırılaraq müvafiq tədbirlər görülüb. Yekun olaraq, bir neçə müəssisədə adları qeyd olunan şəxslər müəyyən olunmayan, bəzi hallarda əmək müqavilələrinə artıq xitam verildiyi müəyyən edilən, 14 müəssisədə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə intizam tənbeh tədbiri olaraq inzibati cərimə tətbiq edilib. Bir neçə halda fəaliyyəti aşkar olunan şəxslərin həmin müəssisələrdə fəaliyyətinə xitam verilib və ümumilikdə bütün müəssisə rəhbərliklərinə bu istiqamətdə xəbərdarlıq olunub. Mərkəzin səlahiyyətlərinə aid olmayan müəssisələrdə və məlumat natamam olan (və ya qeyri-müəyyən olan) hallarda araşdırma aparılmayıb. Məsələ daimi nəzarət altındadır. Yeni faktlar olduğu halda nəzarət tədbirləri görüləcək".

Mərkəzdən, həmçinin bildirilib ki, vətəndaşlar özəl tibb müəssisələrində qarşılaşdıqları mənfi hallarla əlaqəli şikayətləri Analitik Ekspertiza Mərkəzinin "qaynar xətt" (596 05 20) nömrəsinə, www.pharma.az saytının "Müraciət" bölməsinə və ya aem@pharma.az elektron ünvanına bildirsinlər.

Xatırladaq ki, daha əvvəl sosial şəbəkələrdə diplomu olmayan və ya saxta yollarla diplom alan stomatoloqlarla bağlı da analoji məlumat və siyahı paylaşılmışdı.

"Unikal"ın araşdırmasına görə, qalmaqalda adı keçən S.Rüstəmova sabiq səhiyyə naziri Oqtay Şirəliyevə yaxın kadrlardan olub. Hətta 2014-cü ildə Şirəliyev onu "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edib. Həmin vaxt Rüstəmova Səhiyyə Nazirliyi tibbi yardımın təşkili şöbəsinin aparıcı məsləhətçisi vəzifəsində çalışırmış. Bir müddət sonra isə o, yenə keçmiş nazir tərəfindən şöbə müdiri postuna gətirilib.

Bəzi məlumatlara görə isə nazirliyin kulislərində hətta S.Rüstəmovanın Şirəliyevə müavin təyin ediləcəyinə dair söz-söhbətlər də dolaşırmış. Lakin Oqtay müəllim öz postunu itirdikdən sonra bu cür iddialar da elə iddia olaraq qalıb.

O da maraqlıdır ki, Şirəliyevin nazir vəzifəsindən uzaqlaşdırılmasının ardınca Teymur Musayev 1-ci müavin və nazir səlahiyyətlərinin müvəqqəti icraçısı təyin edildikdən dərhal sonra KİV-lərdə İnsan resursları, elm və təhsil şöbəsinin müdiri haqqında bəzi KİV-lərdə tərifli yazılar getməyə başlamışdı. Həmin yazılarda Səidə Rüstəmovanın heç kimə güzəşt etmədən səhiyyə sahəsində baş verən istənilən neqativ hadisəni, şikayətləri ciddi şəkildə araşdırdığı, verilən tapşırıqları xətasız icra etdiyi deyilirdi.

İndi isə adı çəkilən şöbənin müdiri ölkədə geniş ajiotaj doğuran və səngimək bilməyən "plastik cərrah" qalmaqalı ilə gündəmə gəlib. Qalmaqalın nə ilə nəticələnəcəyi hələ ki, bəlli deyil. Lakin bəzi iddialara görə, bu məsələdə adı keçən vəzifəli şəxslərin öz postları ilə vidalaşması mümkündür...

***Sənan Mirzə***

# Xanlar Fətiyevin zavodu ilə bağlı müəmmalar

## Deputatın Müşahidə Şurasına rəhbərlik etdiyi şirkətin başı cərimələrdən açılmır



***Mərkəzi Bank "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinə cərimə protokolu yazıb.***

Yerli KİV-in məlumatına görə, zavod barədə İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə inzibati protokol tərtib olunub. İş Gəncə Şəhər Məhkəməsinin hakimi Asif Əliyevin icraatındadır.

Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə əsasən, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin iyirmi faizindən otuz faizinədək məbləğdə cərimə edilir.

Maraqlıdır ki, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilk dəfədir ki, cərimələnmir. Məsələn 2022-ci ildə də zavod barəsində gömrük qaydaları əleyhinə olan inzibati xəta protokolu tərtib edilib.

Həmin protokol İnzibati Xətalar Məcəlləsinin 485.2-ci maddəsinin pozulmasına görə yazılıb. İXM-in 485.2-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə - vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər min beş yüz manat məbləğində cərimə edilir.

Ötən ilin dekabrında isə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinə növbəti dəfə inzibati protokol yazılıb. Bu dəfə Dövlət Gömrük Komitəsi (DGK) zavod barəsində protokolu İnzibati Xətalar Məcəlləsinin 485.2-ci (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi ilə müəyyən edilmiş hallarda qısa idxal bəyannaməsinin mallar gömrük ərazisinə gətirilməzdən əvvəl elektron formada verilməməsinə görə vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər min beş yüz manat məbləğində cərimə edilir) maddəsinə əsasən tərtib edib.

Bu ilin mayında da DGK-nin gömrük qaydalarını pozması səbəbindən eyni maddə ilə Gəncə Avtomobil Zavodunu yenidən cərimələdiyi barədə KİV-də xəbərlər yayılmışdı.

Elə Mərkəzi Bankın da X.Fətiyevin nəzarətindəki müəssisəni cərimələməsi ilk dəfə deyil. 2022-ci ildə ölkənin baş bankı adı çəkilən İstehsalat Birliyi barəsində məhkəməyə müraciət etmişdi. Həmin vaxt bununla bağlı yayılan məlumatlarda bildirilirdi ki, Mərkəzi Bank "Gəncə Avtomobil Zavodu" barəsində yenə də İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə cərimə protokolu tərtib edib.

Bu maddə İXM-də valyuta tənzimi qaydalarının pozulmasına görədir.

Qeyd edək ki, Gəncə Avtomobil Zavodunun əsası 1986-cı ildə qoyulub və 30 min ədəd ortatonnajlı avtomobillərin istehsalı üçün hesablanıb. Müəssisənin tikintisi layihəyə görə 1989-cü ildə başa çatmalı olsa da, Sovet İttifaqının dağılması nəticəsində zavodun tikintisi yarımçıq qalıb. Yalnız 2004-cü ilin dekabrında zavod işə düşüb və müəssisədə ilk avtomobil yığılıb. Onun nizamnamə kapitalı 3 milyon 573 min manatdır.

"Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri deputat Xanlar Fətiyevdir. Zavodun qanuni təmsilçisi Bağban Nəbiyev Qoca oğludur.

Milli Məclisin biznesmen üzvlərindən olan X.Fətiyev 1994-cü ildən "Elruz" kiçik müəssisəsinin sədri, 1997- ci ildən "Avestas" firmasının baş direktoru, 2003-cü ildən "Aznur" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru işləyib. 2004-2011-ci illərdə isə Gəncə Avtomobil Zavodunun direktoru vəzifəsində çalışıb.

Yerli KİV-in iddialarına görə, deputatın Azərbaycanla yanaşı, Almaniya, Avstraliya, Rusiya, Belarus və Gürcüstan da daxil olmaqla dünyanın çox sayda ölkəsində biznesi var. Onun biznesi əsasən avtomobillərin icarəsi, supermarketlər şəbəkəsi, reklam sahəsini əhatə edir.

Xanlar Fətiyev özü barədə yayılan bu məlumatları indiyədək nə təsdiq, nə də təkzib edib.

Son olaraq onu da deyək ki, Mərkəzi Bankın "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinə qarşı cərimə protokollarının motivi maraq doğurur. Söhbət avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq malların idxal edilməməsi, işlərin görülməməsi və ya xidmətlərin göstərilməməsi müqabilində ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasından gedir. Unutmayaq ki, son vaxtlar oxşar motivlərlə ölkədəki xeyli şirkət rəhbəri başağrısı yaşayıb. Məsələn, kənd təsərrüfatı məhsullarının ixracından əldə olunan külli miqdarda pul vəsaitlərini ölkəyə qaytarmayan şəxslər həbs edilib. Düzdür, "Gəncə avtomobil zavodu" ilə bağlı inzibati protokolun məzmunu bir qədər fərqlidir, yəni burada söhbət ixracdan getmir, lakin eyni zamanda aydın olur ki, Müşahidə Şurasına deputatın rəhbərlik etdiyi müəssisə müəyyən məbləğdə valyuta vəsaitini xaricdən geri qaytarmayıb.

***Sənan Mirzə***

# "Beş ildə əmək pensiyalarının orta məbləğini 2 dəfə artırmışıq" - Nazir

***"Növbəti ildə bizim əmək pensiyalarının orta aylıq göstəricisinin 531 manata çatması proqnozlaşdırılır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iki komitəsinin birgə iclasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

O bildirib ki, 2019-cu ildə əmək pensiyalarının orta məbləği cəmi 264 manat idi: "Beş ildə əmək pensiyalarının orta məbləğini 2 dəfəyə yaxın artıra bilmişik. Yaşa görə əmək pensiyasına baxdıqda isə rəqəm daha yüksəkdir. Növbəti ildə bu rəqəm 569 manat olacaq. Cari illə müqayisədə 8 faiz artım var. 2019-cu ilin göstəricisinə baxsaq, bu, 292 manata bərabər idi".

***Anar Kəlbiyev***

# Kərim Vəliyev pakistanlı generalla terrorla mübarizəyə dair müzakirə apardı

***Pakistanda səfərdə olan Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bu ölkənin Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı general Asim Munir ilə görüşüb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, general-polkovnik K.Vəliyev dost və qardaş ölkə Pakistanla bütün sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsinin Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət mərkəzində olduğunu xüsusi vurğulayıb.

Görüşdə ikitərəfli hərbi əməkdaşlığın genişləndirilməsi və birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi bildirilib, habelə ölkələr arasında strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi qeyd olunub.

Azərbaycan Ordusunun Baş Qərargah rəisi Pakistanın şimal-qərbində yerləşən Tirah vadisində baş vermiş terror hücumunu pisləyib, həlak olanlarla bağlı Pakistan tərəfinə başsağlığı verib.

Azərbaycan ilə Pakistan arasında hərbi sahədə əməkdaşlığın müzakirə edildiyi görüşdə terrorla mübarizə və təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Doğum və uşaqlara qulluq müavinətləri artırıla bilər

***"2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 198,41 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 9,3%, yaxud 16,83 milyon manat çoxdur".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək və sosial siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında bildirib.

"Sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdiriləcək xərclər 25 milyon manat, yaxud cari ildəkindən 2% çoxdur. Fikrimizcə, bu məbləğ postmüharibə dövrünün reallıqlarına uyğun deyil və müraciət edən şəxslərin yalnız cüzi bir hissəsinin ehtiyacını ödəyə biləcək.

Bildirmək istəyirəm ki, 2023-cü ilin avqust ayından etibarən ilin sonunadək müvafiq qanunvericiliyin tələbi olaraq Fondun formalaşmış sərbəst vəsaitindən 1050.0 mln. manat, 2024-cü ilin yanvar-oktyabr ayları ərzində 425,0 mln. manat investisiya fəaliyyətinə yönəldilib, cari ilin sonunadək daha 25,0 mln. manat məbləğində vəsaitin əlavə olaraq yönəldilməsi gözlənilir.

# Növbəti ildə 130 min nəfərin işə düzəldilməsi gözlənilir

***"Növbəti ildə işədüzəltmə hədəfimiz 130 min nəfərdir. Cari ilin 10 ayında toplanmış vakansiyalar çərçivəsində 61 min aktiv vakansiya formalaşdıra bilmişik. Bu baxımdan, növbəti ildə 130 min nəfərin işə düzəltməsi hədəfinə nail ola biləcəyik".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin iki komitəsinin birgə iclasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir bildirib ki, 2018-2024-cü illər ərzində 624 min nəfər Dövlət Məşğulluq Agentliyi tərəfindən işlə təmin olunub.

41_27 IYUI-QARA.qxd 11/21/2024 10:12 PM Page 11



# Qələbələr, qaliblər partiyası - Yeni Azərbaycan Partiyası

***Yeni Azərbaycan Partiyası bugünə qədər şərəfli yol keçərək monolitliyini qoruyaraq, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə qalib partiya kimi tanındı. Yeni Azərbaycan Partiyasının hər seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir.***

Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir.

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Ulu öndərin yüksək nüfuzu, xalqın ona böyük inamı, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil olmuşdur. Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

Belə ki, noyabrın 21-də 550 nəfərin iştirakı ilə təsis olunan və Ümummilli lider Heydər Əliyevin Sədri seçilən Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib. Xalq bilirdi ki,

Yeni Azərbaycan Partiyasının yaranması o dövrdə cərəyan edən hadisələrin yekunu olacaq.

Bəli, bu gün 32 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası öz sıralarında 800 minə yaxın insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi.

Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir.Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və qürur duyur. 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. YAP Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi.

Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır". YAP Azərbaycan cəmiyyətinin siyasi, iqtisadi, sosial, həmçinin ictimai-siyasi həyatında həlledici rol oynayır. Qələbələr partiyası olan YAP zəngin və şərəfli inkişaf yoluna malikdir.

Yeni Azərbaycan Partiyasının və müstəqil Azərbaycanın memarı olan Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən, böyük xilaskarlıq missiyasından, bu gün Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi altında irəli sürdüyü təşəbbüslər, qəbul etdiyi qərarlarla Azərbaycan Dövlətinin daha da güclənməsinə, xalqın rifahının yüksəlməsinə töhfələr verəcək. Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyası olduğunu bütün dövrlərdə təsdiqləyir və yeni hədəflərə doğru inamla irəliləyir.



***Manaf Manafov***
***Nərimanov rayon Mənzi-Kommunal Təsərrüfatı Birliyinin rəisi***

# Kölgədəki Səfər Əbiyevlə bağlı müəmmalar

## Sabiqlərin izi ilə: keçmiş müdafiə naziri Azərbaycanla əlaqələrini tamamilə kəsib?

***"Unikal" qəzeti keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz sabiq Müdafiə naziri Səfər Əbiyev haqqındadır.***

1995-2013-cü illərdə Müdafiə Nazirliyinə rəhbərlik edən Əbiyev hazırda 74 yaşındadır.

O, 1971-ci ildə Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini, 1982-ci ildə Moskvada M. Frunze adına Hərbi Akademiyanı bitirmişdir. 1971-1992-ci illərdə SSRİ Silahlı Qüvvələrində tabor komandiri, alay qərargahının rəisi, alay komandiri, briqada komandiri və diviziya komandiri vəzifələrində işləmişdir.

1992-ci il fevralın 17-dən Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmətə başlayan Əbiyev 1992-1995-ci illərdə Müdafiə Nazirliyi Baş Qərargah rəisinin birinci müavini, Baş Qərargah rəisi-Müdafiə Nazirinin birinci müavini, Müdafiə Naziri vəzifəsinin icraçısı, Müdafiə Nazirinin müavini vəzifələrində çalışıb.



18 il boyunca Müdafiə naziri postunu tutan Əbiyevin vəzifədən kənarlaşdırılınca Azərbaycanı tərk etdiyinə dair iddialar yayılıb. Onun Çexiyaya köçdüyü, həm orada yaşadığı, həm də adı çəkilən ölkədəki biznesini idarə etdiyi deyilir.

Lakin 2 il öncə onun dostu, vaxtilə Müdafiə Nazirliyinin Mətbuat Xidmətinə rəhbərlik etmiş Eldar Sabiroğlu həmin iddiaları yalanlamışdı. Eks-nazirin 72 yaşının tamam olması ərəfəsində yerli KİV-ə açıqlama verən Sabiroğlu "Səfər Əbiyev heç yana getməyib, Azərbaycandadır. Dünən gecə yaxın dostuma zəng vurub ad günü münasibətilə onu təbrik etmişəm", - deyə keçmiş mətbuat katibi bildirmişdi.

Buna baxmayaraq sabiq nazirin Çexiyada yaşadığı və burda çoxsaylı mülklərinin olduğu barədə xəbərlər hələ də səngiməyib. Sonuncu dəfə isə o, ictimaiyyət qarşısına 2022-ci ilin yanvarında məhz Eldar Sabiroğluna "Dədə Qorqud" Milli Fondu adından mükafat verərkən çıxmışdı. Həmin tədbir Bakıda baş tutmuşdu.

Maraqlıdır ki, Səfər müəllim daha əvvəl də məhz sözügedən Fondun tədbirində kameralara tuş gəlmişdi. Belə ki, sabiq nazir 2019-cu ildə azərbaycanlı jurnalist Fuad Abbasovu mükafatlandırmışdı.

Əldə etdiyimiz bilgilərə görə Əbiyev "Dədə Qorqud" Milli Fondunun üzvüdür. Bu qurumun yaradıcısı və prezidenti eyni zamanda "Azərbaycan Dünyası" beynəlxalq jurnalının təsisçisi və baş redaktoru Eldar İsmayılovdur. 1998-ci ildə yaradılan və üç dildə (Azərbaycan, rus və ingilis) çıxan jurnal əsasən azərbaycanlıların xarici ölkələrdə sıx yaşadığı ərazilərdə yayılır. ""Dədə Qorqud" Milli Fondu və "Azərbaycan dünyası" jurnalının məqsədi Türk dünyası xalqlarının birliyi, tarixi Vətənimizdən kənarda yaşayan soydaşlarımızın həmrəyliyi, xalqlar və ölkələr arasında dostluq əlaqələrinə nail olmaqdır" - E.İsmayılov bu yaxınlarda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevlə görüşündə bildirib.

Sabiq Müdafiə nazirinə qayıdınca, bunu qeyd etmək yerinə düşər ki, Əbiyevin nazir postunu itirdikdən - 2023-cü ildən tamamilə kölgəyə çəkilməsi onunla bağlı ən ilginc məqamlardandır. Hətta 2020-ci ildə, 44 günlük Vətən müharibəsi zamanı da keçmiş nazir susqun qalmışdı.

Səfər müəllimin hətta Çexiya vətəndaşlığı aldığına dair də iddialar var. Lakin həmin iddialar qarşı tərəfdən rəsmən təsdiqlənməyib. Onun Çexiyanın turizm-kurort potensialı ilə məşhur olan Karlovı-Varı bölgəsində məskunlaşdığı, adı çəkilən ölkə ilə yanaşı Rusiyada "Pakrovka" ticarət mərkəzinə, Moskva ətrafında bağ evlərinə, yəhudi əsilli iş adamları ilə şərikli biznesə, Almaniyada, Türkiyədə, BƏƏ-də, İtaliyanın Milan şəhərində daşınmaz əmlaka, Macarıstan və Rusiyada bank hesablarına sahib olduğu barədə xəbərlər də indiyədək keçmiş nazir tərəfindən nə təkzib, nə təsdiq olunub.

Əbiyevlə bərabər onun böyük oğlu, vaxtilə vergi orqanlarında işləyən Ruslan Əbiyevin də Azərbaycanı tərk etdiyi yönündə iddialar var. Üç il öncə bildirilirdi ki, o, İstanbul şəhərində, Laleli prospektində yerləşən "İkiem Altın Otelcilik ve Turizm Ticaret Anonim şirkəti"nin paylarını 3.8 milyon manata alaraq böyük otel şəbəkəsinə, çoxsaylı ticarət və xidmət obyektlərinə sahiblənib.

Səfər müəllimin kiçik oğlu Romanın vaxtilə prokurorluq əməkdaşı olduğu barədə xəbər yayılmışdı. Onun hazırda bu qurumda çalışıb-çalışmadığı məlum deyil.

Keçmiş nazirin iki qardaşının - Məhəmməd və Cəlal Əbiyevlərin isə Azərbaycanda biznesinin olduğu deyilir.

Bir sözlə, Səfər müəllimin indi harada olduğu barədə məlumatlar ziddiyyətlidir. Onun ilin müəyyən hissəsini Azərbaycanda, müəyyən hissəsini isə Çexiyada keçirdiyini deyənlər də var, ölkəni biryolluq tərk edərək həyatını Çexiyada davam etdirdiyini söyləyənlər də... Bu təzadlı xəbərlər fonunda bir iddia isə dəyişməz qalır: sabiq nazir hazırda bütün diqqətini öz ailə biznesinin idarəçiliyinə yönəldib.

***Toğrul Əliyev***

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionlar yeni inkişaf mərhələsində



***Son 20 ildə regionların sosial-iqtisadi inkişafına həsr olunmuş 4 dövlət proqramı qəbul olunub və bu proqramlar üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir.***

Azərbaycan prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı inkişafının təmin olunmasına münbit şərait yaradır. Dövlətin bu istiqamətdə həyata keçirdiyi ən böyük proqram "Azərbaycan Respublikasında Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramı"dır. "Unikal" qəzeti bu müddətdə dövlət proqramı istiqamətində həyata keçirilən işləri araşdırıb.

İqtisadiyyat Nazirliyindən "Unikal"a bildirilib ki, ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişib, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır. Sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasında ölkənin regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının qəbul olunması və həyata keçirilməsinin müstəsna əhəmiyyəti var. Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olub. Sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması prezidentin iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Dövlət proqramlarının qəbulundan ötən müddət ərzində ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilib. Belə ki, ölkədə güclü özəl sektor formalaşıb, biznes və investisiya mühiti daha da yaxşılaşıb, sahibkarların sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir. Son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşmış, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artmışdır. İqtisadiyyatın sürətli inkişafı, Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olub ki, bu da gələn turistlərin sayının ildən-ilə çoxalmasına, bir sözlə, turizm fəaliyyətinin genişlənməsinə şərait yaradıb.

Nazirlikdən verilən məlumata görə, bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələr yerinə yetirilib.

"Regionlarda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlər görülüb. Mütərəqqi texniki avadanlıqlar və texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensial gücləndirilib. İqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi və səmərəliliyinin yüksəldilməsi hesabına rəqabətqabiliyyətlilik artırılıb. Mühüm növ ərzaq məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsi yüksəldilib. Ekoloji təmiz məhsul istehsalı artırılıb. Regionlarda məşğulluq imkanları artırılıb və sahibkarlığın, o cümlədən KOB-ların inkişafı sürətləndirilib. Onların maliyyə dayanıqlılığı möhkəmləndirilib. KOB-ların inkişafı sahəsində dövlət qurumları tərəfindən sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmətlərin göstərilməsi təmin edilib. Regionların inkişaf potensialının reallaşdırılmasına dəstək məqsədilə yeni KOB-ların yaradılması, mövcud KOB-ların inkişafı, dövlət dəstək mexanizmlərinə KOB-ların rahat çıxışını təmin edəcək KOB Dostları şəbəkəsinin ölkə üzrə formalaşdırılması və səmərəli fəaliyyəti təmin edilib. Regionlarda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması təmin olunub. Sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi, regionların dayanıqlı inkişafının təmin olunması, yaşayış üçün rahat şərait yaradılması, bölgələrdə, o cümlədən kənd yerlərində yaşayış tərzinə müsbət münasibətin formalaşdırılması həyata keçirilib. Regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilib. Paytaxtla regionlar arasında sosial-iqtisadi inkişaf səviyyəsində bərabərsizliyin daha da azaldılması, regionlarda təhsil, səhiyyə və digər sosial xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində stimullaşdırıcı tədbirlər həyata keçirilib. Regionlarda texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ istilik mənbələri ilə təminatı, kəndlərdə yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər görülüb".

Qeyd edək ki, son 20 ildə regionların sosial-iqtisadi inkişafına həsr olunmuş 4 dövlət proqramı qəbul olunub və bu proqramlar üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. Bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Nazir qeyd edib ki, 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, 2004-cü ildən bəri bölgələrdə 1,8 milyondan çox yeni iş yeri və 52 mindən çox yeni müəssisə yaradılıb: "Regionlarda 8 hava limanı tikilib və ya yenidən qurulub, Laçın hava limanının tikintisi davam edir. 17 min km-dən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər, 3 300-dək məktəb, 450-dən çox uşaq bağçası, 550-dən çox tibb müəssisəsi, 41 Olimpiya İdman Kompleksi tikilib və ya təmir olunub".

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## BMT rəsmisi Azərbaycanın iqlim dəyişmələrinə qarşı tədbirlərini yüksək qiymətləndirib

***BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının (UNDP) Siyasət və Proqrama Dəstək Bürosunun direktoru Markos Neto COP29 çərçivəsində keçirilən "Qafqaz dağları və ətrafı üçün dayanıqlıq tədbirləri: milli adaptasiya planları (MAP) və regional yanaşmalar" mövzusunda tədbirdə çıxış edib.***

"Unikal" xəbər verir ki, o, çıxışında Azərbaycan hökumətini Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasına (UNFCC) öz milli adaptasiya planını təqdim etməsi münasibətilə təbrik edib və bu nailiyyətə UNDP-nin dəstək verdiyini vurğulayıb. O, Azərbaycanla UNDP arasında mövcud sıx əməkdaşlığın iqlim dəyişikliklərinə uyğunlaşma və karbon emissiyalarının azaldılması istiqamətində mühüm əhəmiyyət daşıdığını qeyd edib.

"Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində bərpaolunan enerji strategiyasının inteqrasiyası, enerji səmərəliliyinin artırılması və əsaslı yanaşmalar vasitəsilə biomüxtəlifliyin qorunması istiqamətində mühüm işlər görülür. Xüsusilə dağ ekosistemlərində və həssas icmalarda iqlim dəyişikliklərinin yaratdığı risklərə qarşı tədbirlər həyata keçirilməsi çox vacibdir", - deyə o bildirib.

Markos Neto iqlim dəyişikliklərinə adaptasiya üçün maliyyə resurslarının çatışmazlığını da vurğulayıb. O qeyd edib ki, hazırda inkişaf etməkdə olan ölkələrin illik adaptasiya ehtiyacları ən azı 250 milyard ABŞ dolları təşkil edir, lakin mövcud beynəlxalq maliyyə axınları bu ehtiyacları qarşılamaq üçün kifayət deyil.

"UNDP 2025-ci ilə qədər iqlim dəyişikliyi ilə mübarizəni gücləndirmək və adaptasiya tədbirlərini genişləndirmək məqsədilə BMT sistemi ilə birgə fəaliyyət göstərir. Milli və regional səviyyədə strateji yanaşma adaptasiya tədbirlərinin daha geniş miqyasda həyata keçirilməsinə töhfə verəcək", - deyə o əlavə edib.

Tədbirdə həmçinin qeyd olunub ki, UNDP 2017-ci ildən etibarən Yaşıl İqlim Fondu vasitəsilə 42 ölkəyə texniki dəstək göstərərək onların milli adaptasiya proseslərini inkişaf etdirməsinə yardım edib.

Markos Neto Azərbaycanın milli adaptasiya planını təqdim etməsi istiqamətində atdığı mühüm addımları bir daha yüksək qiymətləndirib və iqlim dəyişikliklərinə uyğunlaşma tədbirlərinin uğurla həyata keçirilməsi üçün maliyyə resurslarının səfərbər edilməsinin vacibliyini vurğulayıb.

"Birlikdə biz iqlim dəyişikliklərinin yaratdığı çağırışlara cavab vermək üçün davamlı və dayanıqlı gələcək qura bilərik", - deyə BMT Baş katibinin köməkçisi bildirib.

41_27 IYUI-QARA.qxd 11/21/2024 10:12 PM Page 13





# Rəşad Nəbiyev pakistanlı nazirlə görüşdü

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Pakistanın özəlləşdirmə, investisiya şurası və kommunikasiya üzrə federal naziri Abdul Alim Xanla görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə iki ölkə arasında nəqliyyat, xüsusilə aviasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.

Eyni zamanda Azərbaycan və Pakistanın aviasiya operatorlarının birgə fəaliyyəti barədə fikir mübadiləsi aparılıb.

# Gələn il 750 metodist işə götürüləcək

***"Strategiyada nəzərdə tutulmuş tədbirlər çərçivəsində 2026-cı ilin sonuna qədər müasir metodiki xidmətdə çalışan peşəkar işçilərin sayının 2250 nəfərə çatması hədəfi müəyyən edilmişdir".***

"Unikal"ın məlumatına görə, bunu elm və təhsil naziri Emin Əmrullayev Milli Məclis komitələrinin birgə iclasında deyib.

O bildirib ki, təhsildə müasir metodiki xidmətin təşkili, bu işlərin icrası ilə bağlı növbəti ildə 750 nəfər metodistin işə cəlb olunması məqsədilə dövlət büdcəsində 7.1 milyon manat vəsait proqnozlaşdırılıb.

# Daha 46 marşrutun fəaliyyəti bərpa edilir

***Noyabrın 25-dən 46 sayda avtobus marşrutunun fəaliyyəti bərpa edilir.***

"Unikal" xəbər verir ki, bununla bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb.

Noyabrın 25-dən hərəkət sxemləri bərpa ediləcək marşrutlar aşağıdakılardır:

1, 7B, 13, 15, 31, 37, 38, 40, 54, 55, 60, 62, 70, 71, 93, 96, 105, 107, 118A, 118B, 131, 139, 141, 148, 162, 163, 166, 168, 169, 172, 173A, 173B, 184, 185, 189, 197, 198, 204, 205, 214, 216, 217, 120E, M8, 140E və E1 nömrəli avtobuslar.

# Siyəzəndə sənaye məhsulu istehsalında artım olub

***2024-cü ilin yanvar-sentyabr aylarında 24629,2 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə 72,4 faiz çox olmuşdur.***

Ümumi istehsalın 62,0 faizini sənaye məhsulları, 38,0 faizini isə sənaye xarakterli xidmətlər təşkil etmişdir.

Məhsulun 26,9 faizi mədənçıxarma, 34,9 faizi emal, 32,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 5,4 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Qeyri-dövlət sektorunda istehsalın həcmi 13296,1 min manat və ya sənaye məhsulunun 54,0 faizini təşkil etmişdir.

## Bəzi demoqrafik göstəricilər haqqında

***Siyəzən rayonunun əhalisi 2024-cü il oktyabr ayının 1-nə 42027 nəfər olub. 2024-cü ilin yanvar-sentyabr aylarında rayonda 346 nəfər doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 11,0 təşkil etmişdir.***

2024-cü ilin yanvar-sentyabr aylarında 178 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6-dan 5,7-yə qədər azalmışdır. 2024-cü ilin yanvar-sentyabr aylarında rayonda 167 nikaha daxilolma və 50 boşanma halları qeydə alınmış, əhalinin hər 1000 nəfərinə 2023-cü ilin müvafiq dövrünə nisbətən nikahların sayı 5,5-dən 5,3-ə qədər, boşanmaların sayı isə 1,7-dən 1,6-ya qədər azalmışdır.

***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***
***Kamil Xəlilov***

# "Uyğunlaşma xüsusi tədbirlər və adekvat maliyyə tələb edir" - Umayra Tağıyeva

***"İqlim dəyişikliyinin mənfi nəticələri bugünkü həyatımızda özünü büruzə verir. Dünya artıq orta temperaturun və fəsillərin dəyişməsini, ekstremal hava hadisələrinin artan tezliyini və yavaş başlayan hadisələri yaşayır. Ölkələr və icmalar iqlim dəyişikliyinin cari və gələcək təsirlərinə cavab vermək üçün uyğunlaşma həlləri hazırlamalı və tədbirlər həyata keçirməlidir. Uyğunlaşma tədbirləri ölkənin və ya regionun unikal kontekstindən asılı olaraq bir çox formada ola bilər. Siz yaxşı bilirsiniz ki, "hər kəsə uyğun bir həll" yoxdur, lakin eyni ekosistemləri paylaşan ölkələr üçün əməkdaşlıq, bilik və təcrübə mübadiləsi bu mənada çox vacibdir".***




"Unikal" xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva COP29 çərçivəsində keçirilən "Qafqaz dağları və ətrafı üçün dayanıqlılıq tədbirləri: milli adaptasiya planları (MAP) və regional yanaşmalar" mövzusunda tədbirdə deyib.

Nazir müavini bildirib ki, uğurlu uyğunlaşma təkcə hökumətlərdən deyil, həm də maraqlı tərəflərin, o cümlədən yerli icmaların, milli, regional, çoxtərəfli və beynəlxalq təşkilatların, dövlət və özəl sektorların, vətəndaş cəmiyyətinin və digər müvafiq subyektlərin fəal və davamlı cəlb edilməsindən, eləcə də biliyin səmərəli idarə edilməsindən asılıdır.

"Ölkələrimiz həqiqətən unikaldır. Coğrafi yerləşməsi və müxtəlif relyefi xüsusilə dağlıq ərazilərdə iqlim dəyişikliyinin səbəb olduğu ekoloji və digər problemlər yaratmaqdadır. Qışda buzlaqların əriməsi və qar sahəsinin azalması çaylarda suyun səviyyəsinin azalmasına səbəb olur. Son 10 ildə quraqlığın müddəti 19 faiz artıb. Yağıntıların ümumi miqdarının 10 faiz azalması kənd təsərrüfatına ciddi təsir göstərib. Həmin proseslər ekosistemlərə təsir edir və biomüxtəliflik üçün risklərə səbəb olur. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) 6-cı qiymətləndirmə hesabatı növlərin itməsi riskindən bəhs edir. Uyğunlaşma nə edilə biləcəyi barədə mücərrəd düşünmək deyil. Uyğunlaşma xüsusi tədbirlər və adekvat maliyyə tələb edir. COP29 İqlim Fəaliyyəti Gündəliyi iqlim dəyişikliyi ilə bağlı təcili, kritik problemi həll etmək üçün millətlər arasında ortaq öhdəliyimizi nümayiş etdirir.

Azərbaycanda MAP prosesi ilə səyahətimiz BMTİP və Yaşıl İqlim Fondunun dəstəyi ilə başladı. Bu tərəfdaşlıq bizim ilkin milli uyğunlaşma planımızın formalaşmasında mühüm rol oynadı, orada dağlar ekosisteminin zəifliyi qiymətləndirilmiş və müvafiq uyğunlaşma tədbirləri hazırlanıb", - deyə U.Tağıyeva qeyd edib.

# 2024-cü ilin 9 ayında Ağdaşın istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri




***Məhsul və xidmətlərin 74,2 faizi istehsal sahələrinin, 25,8 faizi isə xidmət sahələrinin payına düşüb.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 164 milyon 204,6 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da, 77 milyon 210,7 min manatı bitkiçiliyin, 86 milyon 993,9 min manatı isə heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı qiymət indeksi nəzərə alınmaqla 0,8 faiz azalmış, faktiki qiymətlərlə isə 2,8 faiz artmışdır.

Rayonun müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 65 milyon 635,8 min manatlıq və ya əvvəlki ilin eyni dövrünə müqayisədə faktiki qiymətlərlə 0,4 faiz, qiymət indeksi nəzərə alınmaqla isə 6,3 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. İstehsal olunmuş sənaye məhsulunun 6 milyon 375,2 min manatı və ya 9,7 faizi dövlət, 59 milyon 260,6 min manatı və ya 90,3 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

2024-cü ilin yanvar-sentyabr aylarında rayonda 29 milyon 496,5 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,3 dəfə çoxdur. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 25 milyon 589,6 min manatı və ya 86,8 faizi dövlət, 3 milyon 906,9 min manatı və ya 13,2 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 90 milyon 208,3 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 0,5 faiz və ya 436,5 min manat, qiymət indeksi nəzərə alınmaqla isə 1,2 faiz və ya 1 milyon 51,8 min manat azdır. İstehsal olunmuş xidmətlərin 84 milyon 688,7 min manatı və ya 93,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 5 milyon 126,0 min manatı və ya 5,7 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 393,6 min manatı və ya 0,4 faizi informasiya və rabitə sahəsində olmuşdur.

***Arif Qurbanov,***
***Ağdaş Rayon Statistika İdarəsinin rəisi***

41_27 IYUl-QARA.qxd 11/21/2024 10:13 PM Page 14



# Vətən sevgisinin ən uca zirvəsi



***44 günlük haqq savaşımızda Sadiq Nadir oğlu Rəhimov sinəsini Vətəninə sipər etməklə adını tarixə yazdı. Şərəfli ölümü ilə ölümsüzlüyə qovuşan Sadiq indi bütün Azərbaycan xalqının fəxridir.***

Bəli, Sadiq kimi qeyrətli oğullar 30 il düşmən əsarətində olan müqəddəs Vətən torpaqlarına axıtdığı qanı ilə bir daha xalqımızın mənliyini, kimliyini dünyaya bəli etdilər.

1997-ci ildə Lerik rayonunun Veri-Əliabadı kəndində anadan olmuş Sadiq Rəhimov lap kiçik yaşlarında doğma Azərbaycana bağlanıb. Boy atan ata mənfur düşmənin işğalçılıq hərəkətlərini heç cür vicdanına sığışdıra bilməyib. Odur ki, orta məktəbi bitirib ordu sıralarına gedib. Cəbhə bölgəsində Vətənini hər şeydən üstün tutmaqla ona ləyaqətlə xidmət edib. Və Qarabağımızın işğaldan azad olması naminə hər an yağı düşmənlə döyüşə can atıb.

Əsgərlikdən sonra evə dönən Sadiq bir belə rahatlıq tapmayıb. Axı düşməndən alacağı öcü qalırdı. Həmin qisas gününü gözləyib. 2020-ci ilin 27 sentyabrda arzuladığı məqam yetişib. Vətən müharibəsinin ilk günündə Sadiq digər qeyrətli oğullar kimi silah götürüb ön cəbhəyə gedib. İştirak etdiyi Füzuli və Xocavənd uğrunda ağır ölüm-dirim savaşında rəşadət nümunəsi göstərərək erməni dığalarına ciddi itkilər verib.

Döyüş meydanında yağıya ürəyincə qan qusdurub şəhidlik zirvəsinə ucalıb. Bununla da Vətənini canından artıq sevən qəhrəman Sadiq könüllərə köç edərək əlçatmaz, ünyetməz bir ömür qazanıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının medallarla təltif edilməsi haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən Sadiq Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin, Xocavəndin və Şuşanın azadlığına görə medalları ilə təltif olunub.

Zəfər şəhidi Sadiqin ömür yolu nə qədər qısa olsa da, gələcək nəsillərimiz üçün örnək olacaq bir tarix yazıb. Odur ki, leriklilər öz qəhrəman oğlunun xatirəsini əziz tutmağı özlərinə müqəddəs borc bilirlər, həmişə onu böyük ehtiramla yada edirlər.

Bəli, Vətən, torpaq yolunda canından keçənlər heç vaxt ölmürlər.

***Zəfər Orucoğlu, AJB üzvü***



## Bu il Azərbaycana idxal edilən avtomobillərin sayı açıqlandı

***2024-cü ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana ümumilikdə 1 milyard 484.4 milyon ABŞ dolları dəyərində 74 723 ədəd avtomobil idxal olunub.***

Bu barədə "Unikal"a Dövlət Gömrük Komitəsindən bildirilib.

2023-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə ölkəyə idxal olunan avtomobillərin sayı 8% və ya 6 483 ədəd azalıb, dəyəri isə 8% və ya 110.4 milyon dollar artıb. 2023-cü ilin müvafiq dövründə Azərbaycana 1 milyard 374 milyon ABŞ dolları dəyərində 81 206 ədəd avtomobil idxal edilib.

Qeyd edək ki, hesabat dövründə idxal olunan yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 167 ədəd artaraq 2592 ədəd təşkil edib.

## Türkiyə-Azərbaycan Universitetinə bu qədər tələbə qəbul ediləcək

***Növbəti ildə Türkiyə-Azərbaycan Universitetinin fəaliyyətinin təmin edilməsi və tələbə qəbulunun artırılması məqsədilə dövlət büdcəsində 10 milyon manat vəsait proqnozlaşdırılıb.***

"Unikal"ın məlumatına görə, bunu elm və təhsil naziri Emin Əmrullayev ötən gün Milli Məclis komitələrinin birgə iclasında deyib.

O bildirib ki, 2024-2025-ci tədris ilində fəaliyyətə başlayan TAU-da kompüter mühəndisliyi, sənaye mühəndisliyi və qida mühəndisliyi ixtisasları üzrə 87 tələbə təhsil alır, növbəti ildə əlavə 150 tələbə qəbulu planlaşdırılır.

## Azərbaycan nefti bahalaşdı

***Dünya bazarlarında "Azeri Light" (CIF) markalı Azərbaycan nefti bahalaşıb.***

"Unikal" xəbər verir ki, Azərbaycan neftinin 1 barelə olan qiyməti 0,48 ABŞ dolları və ya 0,65% artaraq 74,88 ABŞ dollarına bərabər olub.

Qeyd edək ki, Azərbaycan neftinin əvvəlki qiyməti 74,4 dollar təşkil edib.

## Ağdaşda meyvə və giləmeyvə istehsalı artıb

***Bu ilin yanvar-oktyabr aylarında Ağdaş rayonunda ümumi sahəsi 3 min 742,4 hektar olan meyvə bağlarından 35 min 555,8 ton məhsul istehsal olunub.***

Bu da, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz və ya 1663,2 ton çoxdur. Meyvə bağlarının 90,5 hektarını intensiv üsulla əkilmiş meyvə bağları təşkil edib.

Bu dövrdə bağlardan 17 min 919,2 ton xurma, 7 min 578,1 ton nar, 4 min 988 ton alça, 1 min 994,9 ton gilas, 585,7 ton gavalı, 515,6 ton heyva və digər meyvələr toplanmışdır. Hazırda meyvə bağlarında məhsul yığımı davam edir. Meyvə istehsalı rayonun Yuxarı Ağcayazı, Dəhnəxəlil, Kükəl, Qolqəti, Aşağı Zeynəddin, Gürcuva və Birinci Aral kəndlərində daha çox müşahidə olunur.

***Arif Qurbanov, Ağdaş Rayon Statistika İdarəsinin rəisi***



## Azərbaycan və Türkiyə dəniz xüsusi təyinatlılarının birgə təlimi keçirilir

***2024-cü ilin hazırlıq planına əsasən, Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə qardaş ölkədə "SAT-SAS-2024" birgə təlimi keçirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.

Türkiyə Respublikasının Marmaris şəhərinin Aksaz dəniz bazasında keçirilən birgə təlimdə dəniz xüsusi təyinatlıları hədəf gəmilərinin zəbt edilməsi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetirib.

Təlimin növbəti günlərində plana əsasən, hər iki ölkənin xüsusi təyinatlı bölmələri quru və dəniz döyüş taktikalarının işlənməsi, helikopterdən enmə üsullarının yerinə yetirilməsi, şərti sahil ərazisinin zəbt edilməsi, partlamamış döyüş sursatlarının və dəniz minalarının axtarışı, eləcə də məhv edilməsi üzrə tapşırıqları icra edəcəklər.

Qeyd edilib ki, birgə təlim noyabrın 29-dək davam edəcək.

# 2024-cü ilin 9 ayında Sumqayıt şəhəri üzrə istehlak və məhsul bazarının statistikası

***2024-cü ilin yanvar-sentyabr ayları ərzində istehlakçıların tələbatının ödənilməsi məqsədi ilə satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 1629881,0 min manat olmaqla 2023-cü ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,6 faiz artmışdır.***

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz artaraq 1527141,7 min manata bərabər olmuş, onun 65,1 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində pərakəndə ticarət şəbəkələrində istehlakçılara 1312377,7 min manatlıq məhsul satılmış və onun 351972,4 min manatını (26,8 faiz) ərzaq məhsulları, içkilər və tütün məmulatları, 960405,3 min manatını (73,2 faiz) qeyri-ərzaq malları təşkil etmişdir.

2023-cü ilin müvafiq dövrünə nisbətən pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 2,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 24,1 faiz azalmış, qeyri-ərzaq malları üzrə isə 16,9 faiz artmışdır.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 340,9 manat və ya 2023-cü ilin müvafiq dövrünə nisbətən nominal ifadədə 9,7 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir şəhər sakini orta hesabla ayda 91,4 manatlıq ərzaq məhsulları, içkilər



və tütün məmulatları, 249,4 manatlıq qeyri-ərzaq malları almışdır.

Pərakəndə ticarət dövriyyəsinin 27,7 faizini hüquqi şəxslər (ondan 0,5 faizi dövlət ticarət müəssisələri, 99,5 faizi qeyri-dövlət ticarət müəssisələri), 36,5 faizini fərdi sahibkarlar tərəfindən, 35,8 faizini bazar və yarmarkalarda satılmış məhsulların həcmi təşkil etmişdir.

2024-cü ilin yanvar-sentyabr ayları ərzində pərakəndə ticarət şəbəkələrində əmtəə qalığının həcmi 114833,6 min manat təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin həcmində dövlət sektoru 0,1 faiz, qeyri-dövlət sektoru 99,9 faiz təşkil etmişdir.

***Sumqayıt Şəhər Statistika İdarəsi***

41_27 IYUI-QARA.qxd 11/21/2024 10:13 PM Page 15



# Putin Kim Çen Ina maraqlı hədiyyə göndərdi

***Rusiya prezidenti Vladimir Putin Şimali Koreya lideri Kim Çen Ina maraqlı hədiyyə göndərib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, göndərilən xüsusi hədiyyə Rusiyanın təbii sərvətlər naziri Aleksandr Kozlov vasitəsilə çatdırılıb.

Belə ki, bu hədiyyə nadir heyvanlardan ibarət olub.

*Zərifə Nağıyeva*

# Ermənistan XİN bu barədə Bakı ilə təmasların olduğunu açıqladı

***Transsərhəd su ehtiyatlarının idarə edilməsində Ermənistanla Azərbaycan arasında rəsmi əməkdaşlıq yoxdur.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyi ABŞ səfirinin Bakıdakı son bəyanatını şərh edərkən bildirib.

"Bu mövzuda təmaslar yalnız iki ölkənin qeyri-hökumət təşkilatları səviyyəsində olub", - nazirlik qeyd edib.

Qeyd edək ki, ABŞ-nin Bakıdakı səfiri Mark Libbi Azərbaycan və Ermənistanın hidroloqları və mühəndislərinin regionun sərhədyanı çaylarının vahid idarəetmə sxeminin yaradılması üzrə birgə işini elan edib.

*Ağarza Elçinoğlu*

# "Krımı qaytarmaq olar, amma..." - Zelenski

***"Ukrayna hər bir işğal edilmiş ərazisini, o cümlədən 2014-cü ildə Rusiya tərəfindən ələ keçirilmiş Krımı qaytara bilər".***

"Unikal" xəbər verir ki, bunu "Fox News"a müsahibəsində Ukrayna Prezidenti Volodimir Zelenski deyib.

Ukrayna lideri onu da vurğulayıb ki, "əraziləri qaytarmaq olar, amma biz on minlərlə insanı itirə bilərik".

# Ermənistan bu silahdan almaq üçün danışıqlara başlayıb

***Ermənistan Hindistandan 78 ədəd ATAGS yedəkli haubitsa almaq üçün danışıqlar aparır.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV yazıb. Yeni partiya erməni hərbçilərinin ehtiyaclarına, o cümlədən erməni dilində interfeysə uyğunlaşdırılacaq. Qeyd edək ki, Hindistan Müdafiə Tədqiqatları Qanadı (IDRW) əvvəllər bu silahdan 60 ədəd təhvil verildiyini açıqlamışdı.

*Ağarza Elçinoğlu*

# "Bu şərtlərlə Avropa İttifaqına daxil olmaq fikrində deyilik" - Gürcü spiker

***Bəzi postsovet ölkələrinin siyasətçiləri Gürcüstana münasibətdə "böyük qardaş" rolunu oynamağa çalışırlar.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili "İmedi" telekanalının efirində bildirib.

"Postsovet ölkələrinin, xüsusən də Baltikyanı ölkələrin bəzi siyasətçiləri Gürcüstana münasibətdə böyük qardaş rolunu oynamağa çalışırlar. Amma bu, alınmayacaq, biz bu şərtlərlə Avropa İttifaqına daxil olmaq fikrində deyilik", - spiker vurğulayıb.

*Ağarza Elçinoğlu*

# Bayden Ukraynanın bu qədər borcunu silib

***ABŞ prezidenti Co Baydenin səlahiyyət müddəti başa çatan administrasiyası ABŞ Konqresinə Ukraynanın 4,65 milyard dollarlıq borcunu silmək planları barədə məlumat verib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bu, yeni seçilmiş prezident Donald Tramp vəzifəyə başlamazdan əvvəl Kiyevə dəstək üçün son aksiya olacaq.

Silinən vəsait Ukraynanın 9 milyard dollarlıq borcunun bir hissəsidir.

# "Sülhün güc yolu ilə bərqərar olmasının alternativi yoxdur" - XİN rəhbəri

***Ukrayna suverenliyi və ya ərazi bütövlüyü ilə bağlı kompromisləri nəzərdə tutan yarımçıq həll yolları ilə heç bir təşəbbüsü qəbul etməyəcək.***



"Unikal" xəbər verir ki, bu barədə Ukraynanın xarici işlər naziri Andrey Sibıqa Vaşinqtonda Helsinki Komissiyasının iclasında çıxışı zamanı deyib.

"Biz Ukraynada bilirik ki, yaşamaq üçün ontoloji mübarizə şəraitində yarımçıq həll yollarına yer yoxdur. Yarımçıq tədbirlər yalnız yarı nəticə verir. Və ölüm-dirim vəziyyətlərində yarımçıq həll həyat deyil, ölümdür", - deyə Ukrayna diplomatiyasının rəhbəri vurğulayıb.

O qeyd edib ki, Ukraynada yaranmış vəziyyət təkcə iki dövlət arasında münaqişə deyil, bu, bir dövlətin digər dövlətə təcavüzüdür: "Burada heç-heçə ola bilməz, Putin Rusiyası kimi qəddar və qeyri-qanuni rejimlə müharibə şəraitində güc yolu ilə sülhün bərqərar olmasının alternativi yoxdur. Ukrayna bizim suverenliyimizə və ərazi bütövlüyümüzə güzəştə getməyi nəzərdə tutan heç bir təşəbbüsü qəbul etməyəcək. Bizim iştirakımız olmadan hazırlanmış heç bir təşəbbüsü qəbul etməyəcəyik".

*Ağarza Elçinoğlu*

# "Bakıda yeni iddialı iqlim maliyyəsi məqsədinə dair razılaşma əldə etməliyik" - Antonio Quterreş

***Bakıda yeni iddialı iqlim maliyyəsi məqsədinə dair razılaşma əldə etməliyik.***



"Unikal" xəbər verir ki, bu sözləri BMT-nin Baş katibi Antonio Quterreş Bakıda keçirdiyi mətbuat konfransında deyib.

Maliyyə artımının vacibliyini vurğulayan Baş katib bildirib: "Bütün tərəflərin 1,5 dərəcə ilə uyğunlaşdırılmış yeni milli planlar təqdim etmələrini təmin etmək də vacibdir. Hər bir hökumətə, eyni zamanda, emissiyaların azaldılmasını sürətləndirərək təmiz, ucuz bərpaolunan mənbələrdən və ədalətli enerji keçidindən faydalanmaq şansı vermək lazımdır".

A.Quterreş diqqətə çatdırıb ki, maliyyə nəzarətsiz iqlim xaosunun hamımıza vuracağı dağıntılara qarşı sərmayədir. "Keçən həftə çoxtərəfli inkişaf bankları aşağı və orta gəlirli ölkələr üçün iqlim maliyyəsi ilə bağlı əhəmiyyətli maliyyə elan etdilər. Bu maliyyə 2030-cu ilə qədər ildə 120 milyard dollara çatacaq, daha 65 milyard dollar özəl sektordan səfərbər ediləcək. Mən hər bir tərəfi addımlar atmağa, sürəti artırmağa çağırıram, vaxt azdır", - deyə o ələvə edib.

# "COP29-un Azərbaycanda keçirilməsi Bakının beynəlxalq aləmdə nüfuzunu artıracaq" - Zaxarova

***COP29-un Azərbaycanda keçirilməsi Bakının beynəlxalq aləmdə nüfuzunu artıracaq.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib.

"Əminik ki, bu tədbirin Azərbaycanda keçirilməsi Bakının dünya miqyasında reputasiyasını yüksəldəcək, xüsusən belə nəticələr, uğurlar və belə bir səviyyə nümayiş etdirildiyi üçün. Biz Azərbaycanla və bütün maraqlı tərəflərlə iqlim sahəsində əməkdaşlığı davam etdirməyi hədəfləyirik", - deyə diplomat qeyd edib.

*Ağarza Elçinoğlu*



# AK prezidenti təyyarədə olan şəxsə ilk tibbi yardım göstərdi

***Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen təyyarədə olan şəxsə ilkin tibbi yardım göstərib.***

"Unikal" xəbər verir ki, bu barədə "Bild" nəşri məlumat yayıb.

Məlumata görə, hadisədən sonra təyyarə təcili eniş üçün prioritet olaraq Brüsselə enib və burada xəstə həkimlər tərəfindən qarşılanıb. Həkimlər zərərçəkənə kömək edərkən, qalanları təyyarənin içində gözləyib.

Von der Leyen daha sonra rəsmi tədbirə tələsmək məcburiyyətində qaldığı üçün qara "Mercedes"lə yola düşüb.

Von der Leyen 1991-ci ildə doktorluq dərəcəsi aldığı Hannover Tibb Məktəbində tibb təhsili alıb. "Bild" xəbər verir ki, bu, siyasətçinin təyyarədə olan şəxsi xilas etdiyi ilk hadisə deyil.

# UEFA Çempionlar Liqasında çıxış edən 2 klubu cərimələdi

***UEFA Çempionlar Liqasının IV turunda qeydə alınan qayda pozuntularına görə Portuqaliyanın "Sportinq" və Almaniyanın "Ştutqart" klublarını cəzalandırıb.***




"Unikal" qurumun rəsmi saytına istinadən xəbər verir ki, İngiltərənin "Mançester Siti" komandası ilə matçda portuqaliyalı azarkeşlər tərəfindən fişənglərdən istifadə edildiyi üçün Lissabon təmsilçisi 25 min avro məbləğində cərimələnib. Eləcə də paytaxt klubunun növbəti avrokubok oyununda stadionun A14 sektoruna azarkeş buraxılmayacaq.

"Ştutqart" isə İtaliyanın "Atalanta" kollektivi ilə keçirdiyi oyunda ictimai dəhlizlər bağlandığı və icazə verilməyən bannerlərdən istifadə edildiyinə görə 77 min avro ziyana düşüb.

Qeyd edək ki, "Sportinq" "Mançester Siti"ni 4:1, "Atalanta" isə "Ştutqart"ı 2:0 hesabı ilə məğlub edib.

# Rodri Messini dünyanın ən yaxşısı adlandırdı

***İspaniya millisi ilə Avro-2024-ün qalibi olan, "Qızıl top" mükafatına layiq görülən "Mançester Siti"nin yarımmüdafiəçisi Rodri "İnter Mayami"nin futbolçusu Lionel Messi haqqında danışıb.***



"Unikal" xəbər verir ki, o, 39 yaşlı hücumçunu dünyanın ən yaxşısı adlandırıb:

"Mənim heç bir şübhəm yoxdur ki, Messi tarixin ən yaxşısıdır. Kriştiano fitri istedadı olmadan Messi ilə bərabər səviyyədə oynaya bildi. Amma onlara qarşı oynayanlar hər şeyi fərqi anlayırlar. Kriştianonun cərimə meydançasına daxil olmasını istəmirdik. Çünki bu ölümcül idi. Amma Messi meydanın hər nöqtəsində olurdu".

Qeyd edək ki, Rodri ötən mövsüm "Mançester Siti"nin heyətində 50 oyuna çıxıb, 9 qol vurub və 14 məhsuldar ötürmə edib.

# UEFA-dan İsveç - Azərbaycan oyunu ilə bağlı etiraf: Hakim səhvi olub

***UEFA Millətlər Liqasının C Divizionunun 1-ci qrupunda İsveç və Azərbaycan yığmaları arasında keçirilmiş VI tur oyununda (6:0) VAR hakimlərinin nəticəyə təsir edən səhvə yol verdiklərini etiraf edib.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, ilk hissənin əsas vaxtına əlavə olunmuş 2-ci dəqiqədə meydan sahibi komandanın hücumçusu Aleksander İsakın vurduğu qolun ofsayd səbəbindən qeydə alınmamasının yanlış qərar olduğu təsdiqlənib.

UEFA-nın həmin epizodla bağlı açıqlamasında ofsayd xəttinin düzgün çəkilmədiyi və bunun videokoməkçi hakimin səhvi olduğu bildirilib.

Qeyd edək ki, oyundan sonra Aleksandr İsak da qərarın doğru olmadığını vurğulamışdı.




# "Millimizin futbolçuları rəqiblərdən geri qalmırdılar" - İlham Yadullayev

***Azərbaycanın 17 yaşadək oğlanlardan ibarət millisinin baş məşqçisi İlham Yadullayev komandanın Avropa çempionatının seçmə mərhələsindəki çıxışını dəyərləndirib.***

Mütəxəssis AFFA-nın saytına açıqlamasında seçmə mərhələdə 2 dəfə uduzan və 1 dəfə heç-heçə edən yığmamızın oyunu haqda bunları deyib:

"Çətin qrupda mübarizə aparacağımızı bilirdik. Eyni səviyyədə olan üç komanda ilə qarşılaşdıq. Hər matçdan əvvəl rəqibə individual yanaşırdıq. Təəssüf ki, ilk iki görüşdə məğlub olduq. Ancaq oyun baxımından uşaqlar rəqiblərdən geri qalmırdılar.

Yaxşı nəticə qazanmaq üçün əllərindən gələni edirdilər. Macarıstanla ilk matçda bir az problem yaşadıq. Bu da ilk oyun olmasından qaynaqlandı. Erkən qollar buraxdıq. Yunanıstan yığması ilə ikinci görüşün birinci hissəsi qolsuz yekunlaşdı. İkinci hissədə adi səhvlərdən qollar buraxdıq. Rumıniya seçməsi ilə son qarşılaşmaya futbolçularımız daha sərbəst çıxmışdılar.

Əzmkar oyun göstərdik, hesabda geri düşsək də, heç-heçə edə bildik. Hətta qələbə qazana da bilərdik.

Uşaqların turnirdəki ümumi çıxışından razı qaldıq. Bu matçlar bizim üçün böyük dərs, təcrübə oldu".

Qeyd edək ki, U-17 millimiz Rumıniya ilə heç-heçə edib (1:1), Macarıstana (0:3) və Yunanıstana isə (0:4) uduzub. Yığmamız 4-cü qrupda 1 xalla 4-cü - sonuncu yeri tutub.

# "Gözəllik Kraliçası" futbol komandasına prezident seçildi

***Türkiyədə kişi futbol komandasına "Gözəllik Kraliçası" prezident seçilib.***



"Unikal" xəbər verir ki, Nevide Çiçek adlı gənc qadının rəhbər seçilməsi medianın diqqətini çəkib.

Belə ki, 2021-ci ildə Livanda keçirilən "Miss Tourism Universe" yarışmasında Türkiyəni təmsil edən Nevide Çiçek ilk kraliça tacını qazanıb. O, ötən ay Rusiyada keçirilən "Miss Avrasiya" gözəllik yarışmasında 25 fərqli ölkədən gələn iştirakçılar arasında 3-cü olub.

Serial və filmlərdə də rol alan Çiçək futbol sevgis ilə də tanınır.

Yeni mövsümdə "1207 Antalyaspor" Qadın Futbol Klubu ilə yaşıl meydanlara çıxan Çiçək Antalya Super Həvəskarlar Liqasında mübarizə aparan kişi futbol komandası "Çakallıklı Spor"un prezidenti seçilib.

# "Messi və Ronaldonun dövrü keçdi" - Rodri



***İspaniya millisinin və "Mançester Siti"nin yarımmüdafiəçisi Rodri ispan futbolçuların qazandığı "Qızıl top"ların sayından danışıb.***

"Unikal" xəbər verir ki, bu barədə xarici KİV məlumat yayıb.

"İspaniya tarixin ən böyük dövrlərindən birini keçirdi, ən güclü futbolçulardan bəziləri burada idi, ona görə də qəribə idi ki, bizim yalnız bir "Qızıl top"umuz var idi, amma o zaman iki Marslının, Messi və Ronaldonun dövrü idi, indi onların dövrləri keçdi", - Rodri deyib.

Xatırladaq ki, Rodri ötən mövsümün nəticələrinə görə "Qızıl top"u alıb.

***Ağarza Elçinoğlu***

# La Liqada ən yaxşı məşqçi adına namizədlər

***La Liqada noyabr ayının ən yaxşı məşqçisi adına namizədlər bəlli olub.***

"Unikal" xəbər verir ki, siyahıya Dieqo Simeone ("Atletiko" Madrid), Mişel ("Jirona") və İmanol Alquasil ("Real Sosyedad") daxildir. Bu barədə La Liqanın sosial şəbəkə hesablarında məlumat yayılıb.

Qeyd edək ki, oktyabr ayında mükafat "Barselona"nın çalışdırıcısı Hans-Diter Flikə verilib.

# "Barselona"nın futbolçusu: "Ronaldo mənim kumirimdir"

***"Barselona"nın futbolçusu Vitor Roke "Real"ın sabiq oyunçusu, hazırda "Əl-Nəsr"də çıxış edən Kriştiano Ronaldo haqqında danışıb.***

QOL.az xəbər verir ki, 19 yaşlı hücumçu 37 yaşlı forvardı öz kumiri adlandırıb: "Kriştiano Ronaldo mənim kumirimdir. Neymarı da çox bəyənirəm. Amma Ronaldo mənim üçün zirvədir".

Qeyd edək ki, Roke "Barselona"nın heyətində bütün turnirlərdə 16 matça çıxıb və 2 qol vurub. Braziliyalı futbolçu cari mövsümü icarə əsasında "Betis"də keçirir və o, artıq 14 matçda 5 qola imza atıb. Rokenin Kataloniya klubu ilə hazırkı müqaviləsi isə 2031-ci ilin yayına kimi nəzərdə tutulub.

# "Kəpəz"in futbolçusu əməliyyat olundu

***"Kəpəz" klubunun futbolçusu İlkin Qırtımov əməliyyat olunub.***

Klubun mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, əməliyyat uğurla aparılıb. Qırtımovun bərpa müddəti 3 həftə çəkəcək.

Qeyd edək ki, müdafiəçiyə diz oynağının medial meniskin yırtığı diaqnozu qoyulmuşdu.